**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR MƏRHƏLƏDƏ CİNAYƏT İŞLƏRİ ÜZRƏ HÜQUQİ YARDIMIN CİNAYƏT-PROSESSUAL VƏ KRİMİNALİSTİK PROBLEMLƏRİ

İxtisas: 5612.01 Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti

Elm sahəsi: hüquq elmləri

İddiaçı: Mətanət Paşa qızı Əsgərova

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

Bakı 2023

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

Rəsmi opponentlər:

hüquq elmləri doktoru
**Çingiz Feyruz oğlu Mustafayev**

hüquq elmləri doktoru, dosent
**Mübariz Həsrət oğlu Mustafayev**

hüquq elmləri doktoru, professor
**Bəhram Səffan oğlu Zahidov**

hüquq elmləri doktoru, professor
**Samir Əhməd oğlu Vəliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

hüquq elmləri doktoru, dosent
**Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi:

hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri:

hüquq elmləri doktoru, professor
**Midhəd Seyidəhməd oğlu Qəfərov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İctimai münasibətlərin inkişafı Azərsbaycan Respublikasının və xarici dövlətlərin qanunvericiliyinin yaxınlaşmasını və qarşılıqlı uyğunlaşdırılmasını tələb edir. İctimai münasibətlərin inkişafı öz növbəsində cinayətkarlıqla mübarizəni şərtləndirir və hüquq sistemlərinin özünəməxsusluğu ilə fərqlənən dövlətlərin cinayət siyasəti və ədalət mühakiməsi sahəsində əməkdaşlığını nəzərdə tutur. Ədalət mühakiməsi sahəsində əməkdaşlıq cinayət mühakimə icraatı sahəsində cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında ikitərəfli və çoxtərəfli müqavilələr və ya qarşılıqlılıq əsasında hüquqi yardım göstərilməsi yolu ilə həyata keçirilir.

İnteqrasiya prosesləri cinayətkarlığın getdikcə daha çox dövlətin maraqlarına toxunan beynəlxalq xarakterinə də təsir edir. Cinayətkarlığın beynəlmiləlləşməsinə baxmayaraq, onunla milli səviyyədə mübarizə öz aktuallığını itirmir. Cinayət işləri üzrə hüquqi yardım dövlətlərin cinayətkarlıqla beynəlxalq mübarizədə qarşılıqlı təsirinin formalarından biridir. Cinayətkarlıqla mübarizə dövlətlərarası xarakter almışdır, buna görə də müxtəlif dövlətlərin hüquq-mühafizə orqanlarının milli və beynəlxalq səviyyədə daha sıx əməkdaşlığını tələb edir. Bəzən, cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsi dövlətlərin hüquq-mühafizə orqanlarının əməkdaşlığından da asılıdır.

Beynəlxalq səviyyədə cinayətkarlıqla mübarizə cinayət işləri üzrə hüquqi yardım sahəsində daha sıx əməkdaşlığı şərtləndirir. Hüquqi yardım göstərilən cinayət işləri "xarici elementin" olması və onun cinayət prosesində iştirakının xüsusi xarakteri ilə fərqlənir. Xarici element cinayət-prosessual fəaliyyətin obyekti, subyekti və digər elementləri ilə bağlıdır. Ona görə də hüquqi yardımın cinayət-prosessual aspektləri qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət, dövlətlərin beynəlxalq öhdəliklərinin yerinə yetirilməsi baxımından aktualdır.

Hüquqi yardım milli qanunvericilik əsasında həyata keçirilir. Bəzi beynəlxalq aktlarda qüvvəsi və tətbiqi daxili qanunvericilikdən asılı olan bəzi prosessual normalar vardır, yəni onlar milli

qanunvericiliyə daxil edildikdən sonra həyata keçirilirlər. Cinayət işləri üzrə hüquqi yardımın prosessual məsələlərinin hansı elmi çərçivədə öyrənilməsi məsələsi mübahisəlidir. Hüquqi yardım göstərilməsinin prosessual məsələlərinin milli cinayət-prosessual qanunvericilik çərçivəsində öyrənilməsinin tərəfdarı olan müəlliflər[1] dəstəklənməlidir. Belə ki, cinayət işləri üzrə hüquqi yardım sahəsində digər dövlətlərlə beynəlxalq əməkdaşlıq milli cinayət prosesi olmadan həyata keçirilə bilməz, çünki beynəlxalq müqavilələrin şərtlərinə uyğun olaraq onların həyata keçirilməsinin tənzim edilməsi sorğu edilən ölkənin cinayət-prosessual qanunvericiliyinin üzərinə qoyulmuşdur.

Söhbət beynəlxalq cinayət prosesinin formalaşdırılmasından deyil, cinayət-prosessual sahədə beynəlxalq əməkdaşlıqdan gedir. Cinayət işləri üzrə beynəlxalq əməkdaşlıq dövlətlərin cinayət-prosessual qanunvericiliyi ilə tənzimlənir. Beynəlxalq müqavilələr hüquqi yardım göstərilməsinə cəlb olunmuş dövlətdaxili hüquq-mühafizə və digər orqanların iş qaydasını müəyyən etmirlər, ona görə ki, bu qaydaların müəyyən edilməsi suverenlikdən çıxış edərək dövlətin üstün hüququdur. Biz Volevodz A.Q. ilə razılaşırıq ki, «*Məhz buna görə də beynəlxalq müqavilələrdə ciddi prosessual forma deyil, cinayət-prosessual sahədə beynəlxalq əməkdaşlığın bu və ya digər növünün yalnız mahiyyəti öz tənzimləməsini tapır. Bunu nəzərə alaraq, beynəlxalq müqavilənin qaydalarının prosessual*

[1] Клещев, М.Р. Правовая помощь органам предварительного расследования иностранных государств: /автореферат диссертации на соискание ученой степени кандидата юридических наук./ – Карагандинский юридический институт Министерства внутренних дел Республики Казахстан им. Б. Бейсенова, Караганда, 2002. –28 с.; Рахимов, Б.М. Международно-правовые основы оказания взаимной правовой помощи по уголовным делам между странами СНГ и Балтии: /автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. / – М., 2002. –20 с.; Раджабов, Ф.Н. Международно-правовое сотрудничество в сфере уголовного судопроизводства между Республикой Таджикистан и странами СНГ: /автореферат диссертации на соискание ученой степени кандидата юридических наук. / – М., 2020. – 33 с.

*forma çərçivəsindən kənarda birbaşa tətbiqi yalnız prosessual sadələşdirmə kimi qiymətləndirilə bilər»*[2].

Hesab edirik ki, dövlətlərin cinayət-prosessual qanunvericiliklərinin yaxınlaşması cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin inkişafında perspektivli bir istiqamətdir. Cinayətkarlıqla mübarizə və transmilli cinayətlərlə mübarizədə əməkdaşlıq bəzən qarşılıqlı razılaşmaları tələb edir, bu isə öz növbəsində milli qanunvericiliklərin yaxınlaşmasının zəruriliyini şərtləndirir. Milli qanunvericiliklərin yaxınlaşmasına olan maraq dövlətlərin beynəlxalq təşkilatlar çərçivəsində cinayətkarlıqla mübarizənin ümumi prinsiplərini rəhbər tutmaları ilə şərtləşir. Milli qanunvericiliklərin yaxınlaşması tendensiyası ikitərəfli əməkdaşlıq sazişləri ilə dəstəklənir. Cinayətkarlıqla mübarizədə məqsədlərin ümumiliyi və cinayət ədalət mühakiməsi sahəsində əməkdaşlıq dövlətlərin cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımı tənzimləyən cinayət-prosessual qanunvericiliyinin də yaxınlaşdırılmasını tələb edir.

İnsan hüquqlarının ölçmə standartlarının yüksəldilməsi, hüquqi yardım göstərilməsinin prosessual aspektlərinin milli cinayət prosessual hüquq çərçivəsində öyrənilməsinin mübahisəli olması, ayrı-ayrı prosessual hərəkətlərin aparılmasını tənzim edən qanunvericilik müddəaları arasında fərqlərin aradan qaldırılması cinayət-prosessual hüquq elminin prioritet tədqiqat istiqamətlərinə daxildir.

Dissertasiyanın tədqiqat mövzusunun aktuallığı respublikada aparılan islahatlar nəticəsində insan hüquqlarının təmin edilməsinin etibarlılığı səviyyəsinin yüksəldilməsi; məhkəmə sisteminin təkmilləşdirilməsi; hüquqi yardım göstərilməsini tənzimləyən cinayət-prosessual qanunvericiliyin normalarının təkmilləşdirilməsi; milli cinayət-prosessual hüquq çərçivəsində hüquqi yardım göstərilməsinin prosessual aspektlərinin öyrənilməsinin mübahisəliliyi; ayrı-ayrı prosessual hərəkətlərin aparılmasını tənzimləyən qanunvericilik müddəalarının bir-birinə uyğun

---

[2] Волеводз, А.Г. Правовое регулирование новых направлений международного сотрудничества в сфере уголовного процесса / А.Г.Волеводз, – Москва: Изд. Юрлитинформ, –2002. – с.13.

olmaması; inteqrasiya proseslərinin və çoxtərəfli beynəlxalq müqavilə və sazişlərin təsiri altında milli qanunvericiliklərin yaxınlaşdırılmasının təkidli tələbi; beynəlxalq cinayətkarlıqla mübarizədə insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı təmin edilməsi və qorunmasının ümumi məqsədi; qarşılıqlı hüquqi yardım göstərilməsi çərçivəsində məhkəmə tapşırıqlarının yerinə yetirilməsi təcrübəsində rast gəlinən səhvlər; bəzən qarşılıqlı hüquqi yardım göstərilməsi problemlərinə siyasi yanaşmalarla bağlıdır. Bu problemlər dərin elmi araşdırmaları, qanunvericilik və hüquq-tətbiqedici səviyyədə həlli tələb edir.

Bu hallar seçilmiş tədqiqat mövzusunun aktuallığını müəyyən edir, onun məqsəd və vəzifələrini, obyektini və mövzusunu əvvəlcədən müəyyənləşdirir.

Qarşılıqlı hüquqi yardım göstərilməsi problemi XIX əsrin sonu XX əsrin əvvəllərində tədqiqat mövzusu olmuşdur ki, bu da dövlətlər arasında qarşılıqlı hüquqi yardımın aktuallığı və rolunun artması ilə izah olunur. Problem postsovet ölkələrinin prosessualist alimləri, Avropa və Amerika alimləri tərəfindən araşdırılmışdır. Azərbaycan Respublikasında dövlətlər arasında qarşılıqlı hüquqi yardım göstərilməsinin problemlərinə həsr olunmuş tədqiqatlar aparılmamışdır. Bu tədqiqatlarda cinayət işləri üzrə hüquqi yardıma əsasən beynəlxalq hüququn və ya beynəlxalq prosessual hüququn institutu kimi baxılmış və ya hüquqi yardım göstərilməsinin müəyyən aspektləri araşdırılmışdır. Belə ki, qarşılıqlı hüquqi yardım məsələləri Volevodz A.Q. tərəfindən beynəlxalq həbsin, axtarışın, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və əmlakın müsadirə edilməsinin, habelə onların qanuni sahiblərinə qaytarılmasının, kompüter cinayətlərinin təhqiqatında əməkdaşlığın hüquqi əsaslarının təkmilləşdirilməsi aspektində; Lazutin L.A. tərəfindən cinayət işləri üzrə hüquqi yardıma dair normaların beynəlxalq hüquqda yeri baxımından; Qlumin M.P. tərəfindən hüquqi yardımın milli cinayət-prosessual qanunvericiliyin və beynəlxalq müqavilələrin normalarının məcmusu kimi müəyyən edilməsi aspektində; Milinçuk V.V. tərəfindən iki hüquq sahəsinin (beynəlxalq və cinayət prosessual hüququn) normalarını birləşdirən hüquq institutu kimi; Davıdova M.V. tərəfindən hüquqi yardımın həyata

keçirilməsi əsaslarının və qaydasının müəyyən edilməsi aspektində; Abdulloyev P.S. tərəfindən sübutların toplanması və yoxlanılması, cinayət təqibinin həyata keçirilməsi və cinayət işinin düzgün həlli üçün yardım göstərilməsi məqsədilə aparılan digər prosessual hərəkətlər kimi; Mixaylenko K.E. tərəfindən hüquqi yardımın həcminin müəyyən edilməsi üçün öyrənilmişdir. Qarşılıqlı hüquqi yardım məsələlərinə həsr olunmuş əsərlər çox deyil, qarşılıqlı hüquqi yardım məsələlərini əhatə edən monoqrafik tədqiqatların əksəriyyəti cinayət-prosesual hüququn və beynəlxalq hüququn ən son normaları və son onilliklərin təcrübəsi nəzərə alınmadan aparılmışdır.

Dissertasiyanın ümumi nəzəri müddəaları Abbasova F.M., Əsgərov B.M., Əliyev Ə.İ., Əliyev İ.H., Ələkbərov X.C., İsmayılov X.C., Andreeva O.İ., Bunyadov Z.M., Vəliyev İ.V., Qriqoryev V.N., Qrinenko A.V., Qutsenko K.F., Cəfərquliyev M.Ə., Doğan Soyaslan, Zahidov B.S., Zuyev S.V., İsmayıl Mahmud, Kalinovski K.B., Qəfərov M.S., Kozlovski P.V., Qurbanov H.S., Kutueva E.K., Lukaşuk İ.A., Mustafayeva A.İ., Mustafayev C.M., Mustafayev M.H., Petrovski A.V., Pikalov İ.A., Pobedkin A.V., Salnikov V.P., Sanai Mehdi, Smirnov A.V., Stoyko N.Q., Süleymanov C.İ., K.İ.Sutyagin, Suxarev A.Y., Tuzov A.Q., Həsən ibn Məhəmməd Səfər, Hakan Hakeri, Ximiçeva O.V., Şeyfer S.A., Şeyx Vəhbeh əl-Zuhili, Şinkeviç D.V., Yaşin B.N. və başqalarının əsərlərinə əsaslanır.

Son illərdə Abdulloyev P.S., Bastrıkin A.İ., Volevodz A.Q., Qlumin M.P., Davıdova M.V., Zaxarenkova V.V., Kleşev M.R., Mixaylenko K.E., Racabov F.N., Raximov B.M., Səfərov N.A., Smirnov E.E., Tlexuç Z.A., Şinkeviç D.V. və digərləri dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin cinayət-prosessual problemlərinin tədqiqinə mühüm töhfə vermişlər.

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin nəzəri və praktiki problemləri, milli qanunvericilikdə istintaq və digər prosessual hərəkətlər, dövlətlər arasında hüquqi yardım göstərilməsi üzərində prokuror nəzarəti və s. institutların ayrı-ayrı aspektləri Adiqamova Q.Z., Əhmədov M.M., Balakşin V.S., Balaşova A.A., Bıkov V.M., Bıxovski İ.E.,Volınets K.V., Qerasenkov V.M., Qnatyuk A.Y., Davıdova V.A., Cəfərov A.M., Dobrovolskaya T.N., Jmurova E.S., Eyvazov H.Q., Zuev S.V.,

Kalnitski V.V., Kojokar V.V., Konevets K.S., Kudryavtseva A.V., Larin E.Q., Malofeev İ.V., Mancieva E.V., Muminov B.A., Nazarov S.N., Omelyanyuk Q.Q., Poluyanova E.V., Rossinski S.B., Rumyantseva İ.V., Rıbin A.V., Stukonoq İ.V., Suxarev A.Y., Tarzimanov V.M., Teymurov A.A., Urban V.V., Şamardin A.A. və s. kimi alimlərin əsərlərində tədqiq edilmiş və inkişaf etdirilmişdir.

Avropa və Amerika alimləri (Adam M.G., Els De Busser, Marc Henzelin, P.F. Sutherland, Robert Currie, Sergio Carrera, Marco Stefan, Stanislaw Tozca, T. Markus Funk Partner, Perkins Coie, William Bernam) öz əsərlərində əsasən cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin praktiki məsələlərini nəzərdən keçirmişlər.

Bununla belə, əvvəlki tədqiqatların yüksək elmi dəyərinə baxmayaraq, hazırda "xarici elementli" cinayət ədalət mühakiməsinin vəzifələrinin, ilk növbədə proses iştirakçılarının hüquq və qanuni mənafelərinin səmərəli müdafiəsinin, ədalət mühakiməsinə çıxış imkanlarının, ədalət mühakiməsinin həyata keçirilməsinin zəruri şərtlərinin, səmərəli həyata keçirilməsi mexanizmlərinin yaradılması məqsədilə dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsinin nəzəri və təcrübi problemlərinin dissertasiya səviyyəsində dərin nəzəri tədqiq edilməsinə ehtiyac vardır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti hüquqi yardım institutunun inkişaf tarixi, evolyusiyası və mahiyyəti, Azərbaycan Respublikasının dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsini tənzim edən cinayət-prosessual qanunvericiliyinin, digər normativ və normativ-hüquqi aktlarının, beynəlxalq müqavilələrin və sazişlərin müddəaları ilə bağlı ictimai münasibətlərdir.

Dissertasiya tədqiqatının predmeti cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsini tənzimləyən cinayət-prosessual hüquq normaları, cinayət hüququ və digər hüquq elmlərinin, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi üzrə beynəlxalq hüquq elminin nəzəriyyə və təcrübəsinin əsas müddəalarıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi cinayət işləri üzrə hüquqi yardım institutunun mahiyyət və

məzmununu əks etdirən, perspektiv inkişaf istiqamətlərini müəyyən edən konsepsiyanın işlənib hazırlanması; dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin, hüquqi yardım göstərilməsi çərçivəsində konkret istintaq, məhkəmə və digər hərəkətlərin aparılmasının hüquqi bazasının və təcrübəsinin təhlil edilməsi, nəzəri və praktiki problemlərinin müəyyən edilməsi və ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi üçün hüquqi yardım göstərilməsinin cinayət-prosessual, kriminalistik və beynəlxalq əsaslarının təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanmasıdır.

Qoyulmuş məqsədə nail olunması üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

– dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin doktrinal məzmununun əsaslandırılması, onun konsepsiyasının, mahiyyətinin və elementlərinin müəyyən edilməsi;

– “cinayət işləri üzrə hüquqi yardım”, “məhkəmə tapşırığı” və “məhkəmə sorğusu”, “prosessual hərəkətlər”, “məhkəmə hərəkətləri”, “digər hərəkətlər” anlayışlarının formalaşdırılması və qarşılıqlı əlaqələrinin müəyyən edilməsi;

– qarşılıqlı hüquqi yardım göstərilməsi aspektində “prokuror”, “prosessual rəhbərlik”, “prokuror nəzarəti”, “məhkəmə nəzarəti” anlayışlarının təkmilləşdirilməsinin əsaslandırılması;

– elektron sənədlərin anlayışının, mahiyyətinin, məzmununun, kompüter məlumatlarının saxlanmasının və hüquqi yardım göstərilməsində onlardan istifadənin müəyyən edilməsi;

– prosessual və digər hərəkətlərin təşkilati, elmi-texniki və elmi-metodiki kriminalistik təminatı üçün vahid kriminalistik terminlərin və anlayışların işlənib hazırlanmasının əsaslandırılması;

– dövlətlər arasında qarşılıqlı hüquqi yardım institutunun təkamülünün izlənilməsi və təkamül prosesləri nəzərə alınmaqla, müasir dövrdə cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi zamanı hüquqi yardım göstərilməsinin tarixi təcrübəsindən istifadənin əsaslandırılması;

– cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımın həcminin müəyyən edilməsi və üzləşdirmə, tanınmaya təqdim etmə, digər

dövlətlərin mütəxəssislərinin iştirakı ilə məhkəmə ekspertizalarının keçirilməsi kimi prosessual hərəkətlərin hüquqi yardımın həcminə daxil edilməsinin əsaslandırılması;

– cinayət işləri üzrə operativ hüquqi yardım göstərilməsinin, məhkəmə sorğularının təxirəsalınmadan yerinə yetirilməsinin xüsusiyyətlərinin müəyyən edilməsi, sorğu edilən dövlətin müvafiq orqanlarına birbaşa müraciətlərin təşviq edilməsi; cinayət-prosessual qanunvericiliyə "cinayət mühakiməsinin ağlabatan müddəti" anlayışının daxil edilməsinin əsaslandırılması;

– cinayət işləri üzrə hüquqi yardım göstərilməsi çərçivəsində texniki vasitələrdən istifadə etməklə məsafədən prosessual hərəkətlərin aparılmasının xüsusiyyətlərinin müəyyən edilməsi və nəticələrin sübut əhəmiyyətinin əsaslandırılması;

– milli qanunvericiliyin və beynəlxalq müqavilələrin təhlili əsasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi sahəsində problemlərin müəyyən edilməsi və cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin qanunvericilik bazasının və təcrübəsinin təkmilləşdirilməsinə dair təkliflərin işlənib hazırlanması;

– hüquqi yardım göstərilməsi təcrübəsinin təkmilləşdirilməsi aspektində qeyri-müqavilə əsasında hüquqi yardım göstərilməsinin müasir problemlərinin müəyyən edilməsi, cinayət işləri üzrə hüquqi yardım göstərilməsində problemlərin, o cümlədən kəsişən və ya paralel yurisdiksiyalar problemlərinin, aradan qaldırılması üçün daha yüksək səviyyədə, dövlət qrupları, dövlətlərin və ya beynəlxalq təşkilatların iştirakı ilə çoxtərəfli beynəlxalq müqavilələr səviyyəsində daha ümumi müddəaların qəbul edilməsinin əsaslandırılması;

– tədqiqatların nəticələrinin sistemləşdirilməsi və qanunvericilik bazasının, istintaq aparılması nəzəriyyə və təcrübəsinin təhlili əsasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi çərçivəsində prosessual və digər hərəkətlərin həyata keçirilməsinin nəzəri, qanunvericilik əsaslarının və təcrübəsinin təkmilləşdirilməsinə dair təkliflərin işlənib hazırlanması.

**Tədqiqat metodları.** Müəllif tərəfindən təhlil və sintez, formal hüquqi, müqayisəli hüquqi, sosioloji, statistik, obyektivlik, tarixilik və sistemlilik, diaxron, hüquqi təhlil, müqayisəli

hüquqşünaslıq, “case study”, hüquqi sosioloji, hüquqi proqnozlaşdırma kimi ümumi elmi və xüsusi elmi metodlardan istifadə edilmişdir. Belə ki, tarixilik metodu ikitərəfli münasibətlərin tarixi kontekstinin öyrənilməsinə, Azərbaycan Respublikasında hüquqi yardımın inkişafının əsas tarixi mərhələlərinin müəyyən edilməsinə tətbiq edilmiş, Azərbaycanın ərazisinə aid olan tarixi ikitərəfli və çoxtərəfli müqavilələr öyrənilmiş, cinayət işləri üzrə hüquqi yardım institutunun təşəkkül tapmasına təsir edən ayrı-ayrı faktorlar müəyyən edilmişdir. Diaxron metodu antik dövrlərdən bu günə qədər cinayət işləri üzrə hüquqi yardım institutunun inkişaf tarixinin mərhələlərə bölünməsinə kömək etmişdir. Obyektivlik metodu ərazi, regional və digər fərqlər olmadan dövlətlərin və beynəlxalq təşkilatların qanunvericilik və təcrübi problemlərinin təhlili əsasında hüquqi yardım institutunun yaranmasını və inkişafını təhlil etməyə kömək etmişdir. Sistemlilik metodu hüquqi yardım göstərilməsinin nəzəriyyə və təcrübəsinin təhlili əsasında məqsədlərin və prioritetlərin müəyyən edilməsinə tətbiq edilmişdir. Dissertasiya tədqiqatlarında hüquqi təhlil metodunun köməyi ilə cinayət işləri üzrə hüquqi yardımla bağlı alimlərin əsərləri, milli qanunvericiliyin və beynəlxalq aktların müddəaları təhlil edilmişdir. Formal-hüquqi metod qarşılıqlı hüquqi yardım institutunun elementlərinin öyrənilməsi, siyasi və digər faktorlar nəzərə alınmadan qarşılıqlı hüquqi yardımın əlamətlərinin aşkar edilməsinə və müəyyən edilməsinə tətbiq edilmişdir. Müqayisəli hüquqşünaslıq metodu qarşılıqlı hüquqi yardım institutunun digər dövlətlərdə və ya regional sənədlərdə qanunvericilik qaydasında tənzimlənməsinin müqayisəsinin aparılmasına yardım etmişdir. «Case study» metodundan Avropa İnsan Hüquqları Məhkməsinin (AİHM), dövlətlərin qarşılıqlı hüquqi yardım institutunun və ya onun ayrı-ayrı elementlərinin tətbiq edilməsi təcrübəsinin öyrənilməsində istifadə olunmuşdur. Hüquqi sosioloji metod qarşılıqlı hüquqi yardım institutunun səmərəliliyinin müəyyən edilməsi və məhkəmə tapşırıqlarının yerinə yetirilməsi problemlərinin aşkar edilməsi üçün hüquq-mühafizə orqanlarının əməkdaşlarının anketləşdirilməsinin keçirilməsinə, cinayət işlərinin materiallarının öyrənilməsinə kömək etmişdir. Hüquqi proqnozlaşdırma metodu məhkəmə tapşırıqlarının

yerinə yetirilməsi təcrübəsinin təkmilləşdirilməsi və hüquqi yardım institutunun gələcək inkişafı haqqında elmi əsaslandırılmış proqnozlar verilməsi üçün milli qanunvericiliyə və beynəlxalq sənədlərə dəyişikliklər edilməsi üzrə təkliflərin irəli sürülməsinə tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımın inkişaf mərhələləri müəyyən edilmişdir: 1) qədim dövrlər və orta əsrlər – Manna, Midiya, Qafqaz Albaniyası dövlətlərindən islamlaşdırılmayadək cinayət işləri üzrə hüquqi yardım sahəsində dövlətlərarası münasibətlər mərhələsi, qarşılıqlı hüquqi yardım sahəsində münasibətlərin olmaması ilə xarakterizə olunur; 2) Qaraqoyunlu, sonra Ağqoyunlu dövlətləri və diplomatik münasibətlərin təşəkkül tapması dövrü, cinayət işləri üzrə hüquqi yardım məsələlərinin diplomatik həlli ilə xarakterizə olunur; 3) 1747-ci ildə Nadir şahın öldürülməsinə qədər Şirvanşahlar, Səfəvilər dövlətləri dövrü, dövlətçiliyin və beynəlxalq əlaqələrin möhkəmlənməsi ilə səciyyələnir; 4) xanlıqlar dövrü (Qarabağ, Şəki, Şirvan, Bakı, Gəncə, Quba, Naxçıvan, Talış, İrəvan xanlıqları), XVIII əsrin əvvəllərində Rusiyaya birləşdirilmələrinə qədərki dövrü əhatə edir, dövr üçün yerli hökmdarların və ticarət əlaqələrinin güclənməsi xarakterik idi; 5) xanlıqların Rusiyaya birləşdirilməsi dövrü, 1917-ci ilə qədər olan dövrü əhatə edir, Rusiya imperiyasının qanunvericiliyinin təkmilləşdirilməsi, mülki və cinayət hüququ sahəsində müqavilələrin bağlanması, həm mülki, həm də cinayət hüququ sahəsində çoxlu sayda xüsusi traktatların olması ilə xarakterizə olunur; 6) Azərbaycan Xalq Cümhuriyyəti dövrü, 1918-ci ildən SSRİ-nin yaranmasına qədər olan dövr, dövrün əsas xüsusiyyəti digər dövlətlərlə dostluq, əməkdaşlıq və sülh haqqında müqavilələrin bağlanması, hüquqi yardımın ümumi əsaslarının müəyyən edilməsi idi; 7) Sovet dövrü 1991-ci ildə müstəqillik elan olunana qədər davam etdi, hüquqi yardımın SSRİ-nin mərkəzi orqanlarının səlahiyyətlərinə aid olması və Azərbaycan SSR daxil olmaqla, müttəfiq respublikaların müvafiq orqanlarının mərkəzi orqanların nəzarəti altında xarici dövlətlərin məhkəmə sorğularını yerinə yetirməsi ilə səciyyələnir; 8) müstəqil Azərbaycan dövrü,

cinayət işləri üzrə hüquqi yardım sahəsində dövlətlərarası münasibətlərin və qanunvericiliyin rolunun gücləndirilməsi, cinayət işləri üzrə hüquqi yardım haqqında ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanması ilə səciyyələnir [17, s.212-213; 23, s.195; 35, s.1877-1878].

2. Hüquqi yardım göstərilməsinin tarixi təcrübəsi, o cümlədən Məhəmməd Peyğəmbərin müqavilə təcrübəsində tətbiq olunan sülhə müqavimət göstərənlərin amansız cəzalandırılması, bu gün də Azərbaycan üçün 44 günlük ikinci Qarabağ müharibəsindən sonra Üçtərəfli bəyanatın müddəalarının icrası çərçivəsində aktualdır.

3. “Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım” anlayışının milli cinayət-prosessual hüququn institutu kimi müəyyən edilməsi təklif edilir ki, onun çərçivəsində məhkəmə tapşırıqlarının icrası məsələləri həll edilir. Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım iki və ya daha çox dövlətin dövlət orqanları və vəzifəli şəxsləri arasında qarşılıqlı əlaqə formasıdır, O, müqavilələrin icrası və müvafiq olaraq beynəlxalq əməkdaşlıq forması ola bilər.

4. Hüquqi yardım çərçivəsində məhkəmə tapşırığı milli qanunvericiliyin müddəalarına uyğun olaraq sorğu edən xarici dövlətdə məhkəmə baxışında olan və ya istintaq edilən cinayətlə bağlı müvafiq prosessual hərəkətlərin və digər hərəkətlərin həyata keçirilməsi üçün sorğu edilən dövlətin səlahiyyətli orqanına təqdim edilən sorğudur [2, s.268; 25, s. 96].

5. Dövlətlər arasında hüquqi yardım sorğu edən dövlətdə istintaq edilən və ya məhkəmə baxışında olan cinayət işi üzrə sorğu edilən dövlətin milli qanunvericiliyi əsasında onun ərazisində cinayətlərlə bağlı müvafiq prosessual və digər hərəkətlərə dair sorğu edən dövlətin müvafiq səlahiyyətli orqanlarının sorğularının yerinə yetirilməsindən ibarətdir.

6. Başqa dövlətin ərazisində istintaq hərəkətlərinin aparılması tarixi institutdur, lakin adətən digər dövlətin imtiyazı kimi tətbiq edilirdi. Dil problemi olmadıqda, prokurorun prosessual rəhbərliyi ilə istintaq hərəkətlərinin aparılması hüquqi yardım haqqında çoxtərəfli və ikitərəfli müqavilələrə daxil edilməlidir. “Cinayət işlərinə dair hüquqi yardım haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilən qarşılıqlı hüquqi yardım qaydasında göstərilən

hərəkətlərin sırasına prokurorun prosessual rəhbərliyi altında istintaq hərəkətlərinin aparılması da aid edilməlidir.

7. İş üzrə sübutların nəticələrinin tanınması ilə bağlı problemlərin aradan qaldırılması üçün cinayət-prosessual qanunvericiliyə prosessual hərəkətlərin növləri və anlayışları ilə bağlı əlavələr edilməlidir ki, bu da istintaqı aparılan iş üzrə digər hərəkətlərin yerinə yetirilməsi haqqında sorğuların icrası zamanı qeyri-müəyyənlikləri aradan qaldıracaqdır.

8. "Məhkəmə hərəkətləri" anlayışı, istisnasız olaraq, məhkəmə tərəfindən həyata keçirilən prosessual hərəkətlər kimi başa düşülə bilər. Məhkəmə hərəkətləri öz xarakterinə görə nəzarət, istintaq, təşkilati və təhlükəsizlik xarakterlidir. Bütün bu məhkəmə hərəkətlərinin əsas fərqləndirici xüsusiyyəti onların məhkəmənin səlahiyyətlərinə aid olması, iş üzrə cinayət təqibi çərçivəsində həyata keçirilməsi və prosessual hərəkətlər kimi məhkəmə qərarı ilə rəsmiləşdirilməsidir.

9. Bütün anlayışların başa düşülməsində və həyata keçirilməsində vahidliyin təmin edilməsi və dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım haqqında qanunvericiliyin formallığının yüksəldilməsi üçün Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (CPM) "prosessual hərəkət" anlayışı yeni redaksiyada verilməlidir: "prosessual hərəkət cinayət prosesi iştirakçılarının bu Məcəllə ilə nəzərdə tutulmuş və onun müddəalarına uyğun olaraq həyata keçirilən istintaq, məhkəmə və digər prosessual hərəkətləridir; məhkəmə hərəkətləri - məhkəmənin və məhkəmənin rəhbərliyi altında digər iştirakçıların prosessual hərəkətləridir".

10. Hüquqi yardım göstərilməsində videokonfransdan istifadə səmərəli və təsirli bir istiqamətdir. Hüquqi yardım göstərilməsində qarşılıqlılıq prinsipindən çıxış edərək, Azərbaycan Respublikasının CPM-nə videokonfrans rabitəsindən istifadə etməklə məhkəmə sorğularının icrası ilə bağlı əlavələrin edilməsi təklif edilir: "Şəxsin dindirilməsi haqqında xarici dövlətin tapşırığı Azərbaycan Respublikasının ərazisində videokonfrans sistemlərindən istifadə etməklə analoji qaydada həyata keçirilir. Videokonfrans vasitəsilə

dindirmə, üzləşdirmə və tanınmaya təqdim etmə təqsirləndirilən və ya şübhəli şəxsin razılığı ilə həyata keçirilir".

11. Beynəlxalq məhkəmələrin fəaliyyətində və dövlətlərin təcrübəsində tətbiq edilən cinayət prosesində müdafiə olunan şəxslərin anonimləşdirilməsi institutu "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa daxil edilməli, qarşılıqlı hüquqi yardımın səmərəliliyinin artırılmasına kömək etməlidir.

12. Məhkəmə ekspertizasının müəyyən istisnalar tətbiq edilməklə hüquqi yardım göstərilməsi çərçivəsində həyata keçirilməsi zaman və qanunvericilik tənzimləməsi məsələsidir. Məhkəmə ekspertlərinin seçilməsi ilə bağlı məhkəmə və istintaq orqanlarının məhdudiyyətlərini aradan qaldırmaq üçün, "Xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi üçün dövlət rüsumunun dərəcələri" haqqında 2 nömrəli əlavə «58. Ekspert fəaliyyəti» məzmunlu yeni bənd ilə tamamlanmalıdır.

13. Qüvvədə olan qanunvericilik qarşılıqlı hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətlərin sorğularının icrası çərçivəsində prosessual məcburiyyət tədbirlərinin həyata keçirilməsinə prosessual rəhbərliyi, prokuror nəzarətini və məhkəmə nəzarətini nəzərdə tutmur, lakin prosessual hərəkətlər haqqında sorğuların yerinə yetirilməsi müvafiq olaraq prosessual rəhbərlik, prokuror nəzarəti və məhkəmə nəzarəti olmadan sadəcə olaraq mümkün deyildir. Hüquqi aydınlıq üçün Azərbaycan Respublikasının CPM-nin 7.0.23-cü maddəsinin yeni redaksiyada verilməsi təklif olunur: "prokuror-öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya və xarici dövlətlərin hüquqi yardım göstərilməsi qaydasında prosessual hərəkətlərin yerinə yetirilməsi haqqında sorğularının icrasına prosessual rəhbərliyi həyata keçirən və ya dövlət ittihamçısı qismində məhkəmədə ictimai, yaxud ictimai-xüsusi ittihamı müdafiə edən şəxsdir;".

14. CPM-nin 7.0.23-cü maddəsinə "Prokurorun prosessual rəhbərliyi ibtidai istintaqın təşkilini, ibtidai araşdırmanın istiqamətlərinin müəyyən edilməsini, prosessual hərəkətlərin

əlaqələndirilməsini, müstəntiqlərin fəaliyyəti üçün şəraitin yaradılmasını, qanunun tələblərinə əməl olunmasının təmin edilməsini əhatə edir və prokuror nəzarətinin formasıdır” məzmunda yeni hissənin əlavə edilməsi təklif olunur [18,s.81].

15. Cinayət və cinayət-prosessual qanunvericiliyin hüquqi yardım göstərilməsi haqqında müqavilələr üzrə beynəlxalq öhdəliklərə uyğunluğu üçün Azərbaycan Respublikası CPM-nin 46.2-ci maddəsinə cinayət işinin başlanmasının səbəblərinə “hüquqi yardım çərçivəsində xarici dövlətin səlahiyyətli orqanının (vəzifəli şəxsinin) məlumatları” da daxil edilməli, CPM-nin 205-ci maddəsinə “205.1.1. Cinayət işi başlanana qədər xarici dövləti tərk etmiş Azərbaycan Respublikasının vətəndaşları tərəfindən törədilmiş və ya hazırlanan cinayət haqqında hüquqi yardım çərçivəsində xarici dövlətin səlahiyyətli orqanının (vəzifəli şəxsinin) cinayət işinin başlanması üçün səbəb hesab edilən məlumatı sorğu şəklində olmalıdır” məzmunlu hissə əlavə edilməlidir [1, s.29; 3, s.538-539; 7, s.146].

16. Hüquq sistemlərinin və dövlətlərin hüquq sistemlərinin inteqrasiyası şəraitində dövlətlər arasında hüquqi yardım göstərilməsi çərçivəsində ümumi konsepsiyaların tətbiqi, qarşılıqlı anlaşmanın sadələşdirilməsi üçün CPM-nin 48-ci maddəsinin “Cinayət mühakimə icraatının ağlabatan müddəti” adlandırılması və AİHM-nin presedent hüququna, cinayət prosesi iştirakçılarının məhkəməyəqədər mərhələdə və işə məhkəmə baxışı mərhələsində tezliyin təmin edilməsinin pozulması halında şikayət etmək hüququna əsaslanaraq, cinayət mühakimə icraatının ağlabatan müddətinin meyarlarının müəyyən edilməsi məqsədəuyğun olardı.

Azərbaycan Respublikası CPM-nin 48-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi təklif olunur: “Maddə 48. Cinayət mühakimə icraatının ağlabatan müddəti 1. Cinayət mühakimə icraatı ağlabatan müddətdə həyata keçirilir. 2. Ağlabatan müddətə cinayət təqibinin başlandığı andan ona xitam verildiyi və ya ittiham hökmü çıxarılmasınadək olan müddət daxildir, cinayət işinin hüquqi və faktiki mürəkkəbliyi, cinayət mühakimə icraatının iştirakçılarının davranışı, məhkəmənin, prokurorun, təhqiqat orqanının rəhbərinin, müstəntiqin, təhqiqat bölməsi rəisinin, təhqiqatçının cinayət təqibinin

və ya cinayət işinə baxılmasının vaxtında həyata keçirilməsi məqsədilə hərəkətlərin kifayətliliyi və səmərəliliyi, cinayət mühakimə icraatının ümumi davamlılığı kimi hallar nəzərə alınır. 3. Bu Məcəllə ilə müəyyən edilmiş müddətlərin uzadılmasına bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda və qaydada yol verilir".

Həmçinin zərərçəkmiş şəxsin hüquqları içərisində onun prosesin tezləşdirlməsi ilə bağlı xahiş hüququnun olması CPM-nin 87.6-cı maddəsinə daxil edilməlidir.

17. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda sənədləşdirilmiş məlumat (sənəd) anlayışını daha həcmli və uğurlu hesab edirik və cinayət prosesinin məqsədləri üçün ayrıca möhkəmləndirilməlidir. Azərbaycan Respublikası CPM-nin 135-ci maddəsinə "135.4. sənədləşdirilmiş informasiya (sənəd) - maddi daşıyıcıda mətn, səs və ya təsvir formasında qeydə alınan və identikləşdirməyə imkan verən istənilən rekvizitli informasiya mənbəyindən, saxlanma yerindən, rəsmi statusundan, mülkiyyət növündən, mənsub olduğu təşkilat tərəfindən yaradılıb-yaradılmadığından asılı olmayaraq sənədləşdirilmiş informasiyadır." məzmunda yeni hissə əlavə edilməlidir.

18. Başqa bir dövlətin yurisdiksiyasında olan elektron sübutlar aşkar edildikdə, elektron sənədlərdə dəyişiklik edilməsi və ya itmə (silinmə) riskini qismən aradan qaldırmağın ən təsirli yollarından biri "plandankənar məlumat" institutu və ya verilməsi tərəflərin öhdəliyi olmayan məlumatların könüllü olaraq təqdim edilməsidir. Azərbaycan Respublikasının CPM-nə aşağıdakı məzmunda yeni maddə əlavə edilmısi təklif olunur:

"137-2. Kompüter məlumatlarının təxirəsalınmadan saxlanması

Cinayət təqibini həyata keçirən orqanlar, xüsusilə də kompüter məlumatlarının itirilməsi və ya dəyişdirilməsi təhlükəsi altında olduğunu hesab etməyə əsaslar olduqda və ya qarşılıqlı hüquqi yardım çərçivəsində məlumatların axtarılması və ya çıxışı təmin edən analoji hərəkətlər, bu məlumatların götürülməsi və ya saxlanılmasının analoji təmin edilməsi haqqında xahiş göndərmək niyyəti olan xarici dövlətin xahişi ilə onun ərazisində kompüter sistemində saxlanılan informasiya axınları barədə məlumatlar da

daxil olmaqla konkret kompüter məlumatlarının saxlanılmasının operativ təmin edilməsi haqqında qərar verirlər.

Şəxs, onun sahibliyində və ya nəzarətində olan kompüter məlumatlarının saxlanılmasını, bütövlüyünü və məxfiliyini təmin etməlidir” məzmunda yeni hissəsinin əlavə edilməsi məqsədəmüvafiq hesab edilir.

19. Kriminalistik termin və anlayışların unifikasiyası standartlaşdırmanın, prosessual və digər hərəkətlərin nəzəri, hüquqi, təşkilati, elmi-texniki və elmi-metodiki kriminalistik təminatına vahid yanaşmanın şərtlərindən biridir, hüquqi yardım göstərilməsi çərçivəsində onların nəticələrinin düzgünlüyünü və məqbulluğunu artırır. Kriminalistik təminat vasitələrinin tətbiq edilməsinin mütləq göstərilməsi və ya müasir elm, texnika, incəsənət və digər sahələrdə ümumi qəbul edilmiş tədqiqat metodlarının təsviri hüquqi yardım haqqında sorğuları icra edən orqanların səlahiyyətləri çərçivəsində idarə aktının qəbul edilməsi ilə bu orqanların vəzifələrinə daxil edilməlidir [19,s.226].

20. Hüquqi yardım haqqında müqavilələr olmadıqda hüquqi yardım göstərilərkən cəzalandırmanın qarşılıqlı tanınması prinsipinin çevikliyindən çıxış etmək lazımdır. Dövlətlərin regional və digər əsaslarla mövcud qruplaşdırılması şəraitində dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsində problemlərin aradan qaldırılması üçün daha yüksək səviyyədə, dövlət qrupları səviyyəsində, dövlətlərin və ya beynəlxalq təşkilatların iştirakı ilə çoxtərəfli beynəlxalq müqavilələr səviyyəsində qəbul edilmiş daha ümumi müddəalardan çıxış etmək lazımdır. Dövlətlər arasında və ya dövlət qrupları daxilində kəsişən və ya paralel yurisdiksiya problemlərinin həlli cinayət işləri üzrə hüquqi yardım haqqında çoxtərəfli müqavilələrin orqanlarına nəzarət funksiyalarının verilməsi yolu ilə də mümkündür [25,s.101; 26, s.242; 38,s.292].

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatlar ən yeni normativ materiallardan, o cümlədən beynəlxalq hüquqi yardım göstərilməsi sahəsində universal və ikitərəfli sazişlərin müddəaları tətbiq edilməklə, müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi təcrübəsindən istifadə edilməklə aparılmışdır, qarşılıqlı hüquqi yardım institutunun inkişaf mərhələləri, hüquqi yardımın həcmi

müəyyən edilmiş, məhkəmə tapşırıqlarının, prosessual və digər hərəkətlərin, məhkəmə yoxlaması və prokuror nəzarəti, məhkəmə hərəkətləri, istintaq hərəkətləri, hüquqi yardım göstərilməsi ilə bağlı prosessual hərəkətlərin aparılması üçün ağlabatan müddət müəyyən edilmişdir. Üzləşdirmənin, tanınmaya təqdim etmənin hüquqi yardımın həcminə daxil edilməsi və digər tərəfin mütəxəssisləri cəlb olunmaqla məhkəmə ekspertizasının aparılması əsaslandırılmışdır. Şahid qismində dindirilə bilməyən şəxslərin siyahısının tamamlanması üçün təkliflər irəli sürülmüşdür.

Müəllifin elmi əsərlərində irəli sürdüyü bəzi təkliflər özünün qanunvericilik həllini tapmışdır. Bu xüsusilə də "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa məhkəmə-ekspert tədqiqatları, məhkəmə ekspertlərinin reyestri, məhkəmə ekspertizaları tədqiqatları metodlarının dövlət reyestri, məhkəmə ekspertizası metodikaları fondu haqqında dəyişikliklərin edilməsi və Azərbaycan Respublikasının 25 iyun 2020-ci il tarixli 140-VIQD Qanunu ilə CPM-nə cinayət mühakimə icraatının videokonfrans sistemindən istifadə etməklə həyata keçirilməsinə, o cümlədən cinayət prosesinin iştirakçısı Azərbaycan Respublikasının ərazisində olmadıqda onun qarşılıqlı hüquqi yardım göstərilməsi çərçivəsində videokonfrans sistemi vasitəsilə dindirilməsinə dair dəyişikliklərin edilməsinə aiddir [21, s.73].

Cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin təkmilləşdirilməsi üçün cinayət-prosessual qanunvericiliyə dəyişikliklər təklif edilmişdir ki, bu da mümkün anlaşılmazlıqları və ziddiyyətləri aradan qaldıracaqdır. Müəllif tərəfindən məhkəmə tapşırıqlarının yerinə yetirilməsi müddətlərinin qısaldılması məqsədilə məhkəmə tapşırıqlarını icra edən səlahiyyətli orqanların dairəsinin genişləndirilməsi, cinayətkarlıqla mübarizəyə və qarşılıqlı hüquqi yardım göstərilməsinə dair beynəlxalq aktlara və ikitərəfli müqavilələrə plandankənar məlumatlarla bağlı müəyyən normaların daxil edilməsi, dövlətlərin müvafiq inzibati orqanları arasında məlumatlar mübadiləsi, aşkar edilmiş faktlar haqqında plandankənar məlumatların göndərilməsinə dair statistikanın konvension orqanlara verilməsi və hüquqi yardım göstərilməsi üzrə inzibati tədbirlərin dairəsinin genişləndirilməsi əsaslandırılmışdır. Beynəlxalq hüquqi

yardım göstərilməsi sahəsinin rəqəmsallaşdırılması təklif olunmuşdur [27, s.174; 33, s.516].

Qeyri-müqavilə əsasında hüquqi yardım göstərilməsi təcrübəsini təkmilləşdirmək üçün cəzalandırılmanın qarşılıqlı tanınması prinsipinin çevikliyinin tanınması, əməkdaşlıq üçün presedentlər yaradan və qarşılıqlı hüquqi yardımın daha da inkişaf etdirilməsinə kömək edən məhkəmə tapşırıqlarının yerinə yetirilməsinin müdafiə edilməsi Azərbaycan Respublikasında hüquqi yardım göstərilməsi ilə bağlı tarixi aktlardan istifadə etməklə əsaslandırılmışdır. İlk dəfə olaraq Qurani-Kərimin müddəaları və Peyğəmbərin müqavilə təcrübəsi cinayət işlərində hüquqi yardım göstərilməsi aspektində öyrənilmiş, bu müddəalardan cinayət işlərində hüquqi yardım göstərilməsinin təkmilləşdirilməsi üçün istifadə edilməsi ideyası əsaslandırılmışdır. Cinayət işləri üzrə hüquqi yardım göstərilməsində problemlərin aradan qaldırılması üçün daha yüksək səviyyədə, dövlət qrupları səviyyəsində, dövlətlərin və ya beynəlxalq təşkilatların iştirakı ilə çoxtərəfli beynəlxalq müqavilələr səviyyəsində qəbul edilmiş daha ümumi müddəaların tətbiqi ideyası əsaslandırılmışdır [39,s.173-174].

**Tədqiqatının nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya tədqiqatının nəzəri əhəmiyyəti onunla şərtləşir ki, cinayət-prosessual hüquq elmində cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında formalaşmış anlayışları inkişaf etdirir və onlara əlavələr edir. Dissertasiya tədqiqatının bir sıra nəticələrinin məzmunu cinayət-prosessual hüquq elminin dövlətlər arasında qarşılıqlı hüquqi yardım göstərilməsi ilə bağlı nəzəri müddəalarını genişləndirir və dəqiqləşdirir. Dissertasiyada cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsinin mahiyyətini və məzmununu açmağa imkan verən nəzəri müddəalar ümumiləşdirmiş, işlənib hazırlamış və formalaşdırılmışdır. Dissertasiyanın nəzəri nəticələri və təkliflər cinayət-prosessual hüquq elminin cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında yeni biliklərlə zənginləşdirilməsinə yönəlmişdir. Dissertasiya işində hüquqi yardımın anlayış və kateqoriyalarının yeni aspektləri nəzəri cəhətdən əsaslandırılaraq cinayət-prosessual hüquq elminə daxil edilmişdir.

Dissertasiya işində verilən nəticə və tövsiyələrdən cinayət işləri üzrə hüquqi yardım göstərilməsi institutunun gələcək elmi tədqiqatlarında istifadə oluna bilər.

Dissertasiya tədqiqatının praktiki əhəmiyyəti ondan ibarətdir ki, dissertasiyada formulə edilmiş müddəa və nəticələr cinayət-prosessual qanunvericiliyin və müvafiq qanunvericilik aktlarının cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin tənzimlənməsi aspektində səmərəliliyinin artırılmasına kömək edir. Nəzəri və praktiki problemlərin aradan qaldırılmasına dair təkliflər milli və beynəlxalq səviyyədə hüquqi yardım göstərilməsində prosessual fəaliyyətin və cinayət ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsinə, cinayət işləri üzrə hüquqi yardım göstərilməsi zamanı prosessual iştirakçıların hüquqlarının və qanuni mənafelərinin daha etibarlı təmin edilməsinə kömək edə bilər. Dissertasiyanın müddəalarından, nəticələrindən və tövsiyələrdən qarşılıqlı hüquqi yardım göstərilməsi ilə bağlı qanunvericiliyə dəyişikliklər edilməsinə dair təkliflərin hazırlanmasında, hüquqi yardımla bağlı milli qanunvericiliyin və beynəlxalq aktların müddəalarının praktikada düzgün tətbiqi üçün istifadə oluna bilər.

Dissertasiyada təsbit edilmiş müddəalardan təhsil müəssisələrinin hüquq fakültələrinin tələbələri, habelə müxtəlif kursların dinləyiciləri və təcrübi işçilərin ixtisasının artırılmasının müxtəlif formalarında "Cinayət prosessual hüquq" kursunun və müvafiq xüsusi kursların tədrisində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları, nəticələri və praktiki tövsiyələri müəllif tərəfindən konfranslarda çıxışlarda təqdim edilmişdir: Qazaxıstan Respublikasının Qanunvericilik İnstitutu və Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Qazaxıstan Respublikasında hüquqi monitorinq: nəzəriyyə, problemlər, perspektivlər" elmi-praktik konfransı (29 noyabr 2012, Astana); Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının təşkilatçılığı ilə "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" beynəlxalq elmi-praktik konfransı (21 oktyabr 2014, Bakı); Samara Dövlət Universitetinin təşkilatçılığı ilə professor S. A. Şeyferin anadan olmasının 90 illiyinə həsr olunmuş "Rusiyada müasir cinayət mühakimə icraatının aktual problemləri"

Ümumrusiya elmi-praktik konfransı (29-30 yanvar 2015, Samara, RF); Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının təşkilatçılığı ilə "Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri" III Beynəlxalq elmi-praktik konfrans (16 oktyabr 2015, Bakı); BMT-nin UNODC CASC Şəbəkəsi çərçivəsində Mərkəzi Asiya regional ofisinin, Özbəkistan Respublikasının Ədliyyə Nazirliyinin Hüquqşünasların Təkmilləşdirmə Mərkəzinin Özbəkistan Respublikasının Ali Məhkəməsi yanında Araşdırma Mərkəzi ilə birgə təşkilatçılığı ilə "Cinayət işlərinin istintaqı və məhkəmə baxışında elektron sübutların əldə edilməsi və istifadəsi" mövzusunda regionlararası seminar (15-17 mart 2016, Özbəkistan, Daşkənd); Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının keçirdiyi " Müasir şəraitdə xüsusi təyinatlı ali təhsil müəssisələrində daxili işlər orqanları üçün kadr hazırlığı: vəziyyət və perspektivlər" mövzusunda elmi-praktik konfrans (26 may 2021, Bakı); Türk Tarix Qurumu, Ədalət Akademiyası və Türkiyə Vəkillər Kollegiyaları Birliyinin təşkilatçılığı ilə "Türk Hüququ Tarixi Simpoziumu" (26-28 oktyabr 2021, Ankara); Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının təşkilatçılığı ilə "Azərbaycan Respublikasının suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün konstitutsiya əsasları" adlı respublika elmi-praktik konfransı (5 noyabr 2021); "İnsanın rifahının təmin edilməsində hüququn rolu" mövzusunda O.E. Kutafin adına Moskva Dövlət Hüquq Universitetinin "Kutafin oxunuşları" birgə XX Beynəlxalq elmi-praktik konfransı və Lomonosov adına Moskva Dövlət Universitetinin Hüquq fakültəsinin birgə XXII Beynəlxalq elmi-praktik konfransı (23-26 noyabr 2021, Moskva), Bakı Dövlət Universitetinin təşkil etdiyi "XXI əsr- yeni çağırışlar və hüququn müasir inkişaf problemləri" adlı Beynəlxalq konfrans ( 21-22 dekabr 2021).

Tədqiqatın nəticələri Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında, Azərbaycan Respublikası DİN-in Polis Akademiyasında, Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər fakultəsində tədris prosesinə tətbiq edilmiş və sınaqdan keçirilmiş, Azərbaycan Respublikasının Milli

Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən istifadə olunması üçün qəbul edilmişdir.

Dissertasiya tədqiqatının məzmununu təşkil edən əsas nəzəri müddəaları dissertasiya tədqiqatının müddəalarının nəşri üçün Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan elmi nəşrlərdə 47 elmi məqalədə, o cümlədən Rusiya Federasiyanın, Ukrayna, Qazağıstan, Qırğızıstan, Moldova, Tacikistan respublikalarının Ali Attestasiya Komissiyaları tərəfindən tövsiyə edilən dövri elmi nəşrlərə aid olan jurnallarda, Web of Science, ERİH PLUS, ULAKBİM beynəlxalq xülasələndirmə və indeksləmə bazalarında daxil olan Laplage Em Revista (Braziliya), Journal la revista Cuestiones Políticas (Venesuela), Revista Amazonia Investiga (Kolumbiya), Path of Science (Slovakiya), Turkish Online Journal of Qualitative Inquiry (Türkiyə) jurnallarında çap olunmuşdur.

Dissertasiyanın əsas müddəalarından müəllif tərəfindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında Azərbaycan Respublikasının birinci instansiya məhkəmələrinin hakimləri üçün təşkil edilən təlimlərdə "Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım" mövzusunda mühazirələrin oxunması zamanı istifadə edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş hissədən, dörd fəsil, o cümlədən on bir paraqraf, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın birinci fəsli 85 182 işarədən, ikinci fəsil 105 933 işarədən, üçüncü fəsil 69 600 işarədən, dördüncü fəsil 132 785 işarədən, dissertasiya 495 429 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzunun aktuallığı əsaslandırılmış, mövzunun işlənmə dərəcəsi araşdırılmış; tədqiqatın obyekti və predmeti; tədqiqatın məqsəd və vəzifələri; tədqiqat metodları; müdafiəyə çıxarılan müddəalar; tədqiqatın elmi yeniliyi; tədqiqatın nəzəri və praktiki əhəmiyyəti; aprobasiyası və tətbiqi; dissertasiya

işinin yerinə yetirildiyi təşkilat və işin strukturu haqqında məlumatlar göstərilmişdir.

**Birinci fəsil "Dövlətlər arasında hüquqi yardım institutunun evolyusiyası və inkişaf tarixi"** üç paraqrafdan ibarətdir.

**Birinci fəsilin birinci paraqrafında "Azərbaycan Respublikasında dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım institutunun inkişaf tarixi"** qanunvericilik tənzimləməsinin tarixi və hüquqi yardım göstərilməsi təcrübəsi izlənilir.

Hüquqi yardım institutu dövlət daxilində tarixi və siyasi cərəyanlarla bağlıdır. Bu proseslərin öyrənilməsi hüquqi yardım göstərilməsində və cinayət ədalət mühakiməsinin məqsədlərinə nail olunmasında insan hüquqlarının daha etibarlı təmin olunmasına kömək edəcəkdir. Dövlətlər arasında hüquqi yardım institutunun tarixi inkişafı ərzində bu institut həmişə siyasi müdaxilələrin təsirinə məruz qalmış, siyasi cinayətlərin anlayışı ilə əlaqələndirilmiş, siyasi məhbusların ekstradisiyası və s. ilə bağlı olmuşdur. Ona görə də tarixi aspektlərin ətraflı öyrənilməsi daha təkmil və ixtisaslaşmış xarakter alan mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə daha müstəqil hüquqi yardımın formalaşdırılmasına imkan verəcəkdir.

Azərbaycanın ərazisinin coğrafi yerləşməsi, təbii sərvətləri həmişə xarici dövlətləri, o cümlədən qonşu dövlətləri özünə cəlb etmişdir. Buna görə də Azərbaycanın tarixi onun ərazisinə münasibətdə işğal xarakterli müxtəlif fəaliyyətlərlə zəngindir. Tarixin müxtəlif mərhələlərində Azərbaycan və ya onun ərazisinin ayrı-ayrı hissələri Rusiyanın, İranın, Türkiyənin və digər dövlətlərin tərkibinə daxil olmuş və ya müxtəlif dövlətlər arasında mübahisə predmeti olmuşdur. Buna görə də Azərbaycanın tarixi kimi, hüquq elmlərinin tarixi və hüquqi tənzimetmə də Rusiya, Türkiyə, İran və İngiltərə, Fransa və s. Avropa dövlətləri ilə bağlı olmuşdur. Sülh, təslim, ticarət və s. müqavilələri bağlanılarkən məhkəmə aidiyyatı, cinayətkarların verilməsi və s. məsələlərə də toxunulmuşdur. Demək olar ki, bütün müqavilələrdə güclünün və qalibin hüququ hiss olunur.

Azərbaycanda hüquqi yardım institutunun inkişaf xüsisiyyətlərinə qədim dövrlər və orta əsrlərdə qarşılıqlı hüquqi yardımın elementlərinə rast gəlinməməsi; Qaraqoyunlu və

Ağqoyunlu dövlətləri dövründə diplomatik qaydada hüquqi yardım göstərilməsi; Şirvanşahlar, Səfəvilər dövlətləri dövründə məhdud olsa da diplomatik qaydada hüquqi yardım göstərilməsi; xanlıqlar dövründə hüquqi yardıma həsr olunmuş müqavilələrin olmaması, hüquqi yardımla bağlı ayrı-ayrı hərəkətlərin ticarət müqavilələrinə daxil edilməsi; xanlıqların Rusiyaya birləşdirilməsi dövründə hüquqi yardım haqqında xüsusi müqavilələrin olması, nisbətən inkişaf etmiş səviyyədə hüquqi yardım göstərilməsi; Azərbaycan Xalq Cümhuriyyəti dövründə hüquqi yardımın yeni qanunlar qəbul edilənədək Rusiya imperiyasının qanunvericilik aktları ilə tənzimlənməsi aiddir.

Dövlətlər arasında hüquqi yardım göstərilməsinin inkişafının sovet dövrü onunla səciyyələnir ki, ötən əsrin səksəninci illərinə qədər hüquqi yardım göstərilməsi hüquqi cəhətdən yalnız SSRİ-nin mərkəzi orqanlarının səlahiyyətinə aid idi, daimi konvensiya və müqavilə xarakteri daşıyırdı. Müttəfiq respublikalar, o cümlədən Azərbaycan Respublikası xarici dövlətlərin məhkəmə sorğularını SSRİ-nin mərkəzi orqanlarının nəzarəti altında yerinə yetirirdi və formal xarakter daşıyırdı.

İslamın təməl prinsiplərindən biri əməkdaşlıqdır və xalqlar, tayfalar arasında əməkdaşlıq nəzərdə tutulur. Qurani-Kərim vədlərə və razılaşmalara məcburi şəkildə riayət edilməsini, hüquq pozuntularının qarşısının alınmasını və aradan qaldırılmasına köməklik göstərilməsini nəzərdə tutur. Qurani-Kərim dövlətlər və insanlar arasında yardıma fərq qoymur, yardımın ümumi şərtlərini müəyyən edir. Qurani-Kərimin digər dinə inananlar, müqavilələrə məcburi riayət edilməsi və Peyğəmbərin müqavilə praktikası ilə bağlı müddəaları cinayətkarlarla bağlı qəbilələr və digər xalqlar arasında hüquqi yardım, ekstradisiya və digər məsələlərə də aiddir və dövlətləri qarşılıqlıqla məhdudlaşdırmır. Əksər dövlətlər dünyəvidir, lakin dinin dövlətlərarası münasibətlərə, qanun yaradıcılığına və hüquq tətbiqetmə təcrübəsinə təsiri danılmazdır. Ona görə də hüquqi yardım göstərilməsində islam normalarından geniş istifadə olunması dəstəklənməlidir [40, s.96; 46, s.2241].

Azərbaycan Respublikasında dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım qaçmış təhkimli kəndlilərin elementar

verilməsindən, diplomatik qaydada bir dəfəlik hüquqi yardım göstərilməsindən dövlətlər arasında ikitərəfli və çoxtərəfli müqavilələr əsasında institutlaşdırılmış hüquqi yardım göstərilməsinədək, qanunvericilik əsasının olmamasından hüquqi yardım məsələlərinin məcəlləşdirilməsinədək, hüquqi yardımın ayrı-ayrı aspektlərini tənzim edən normaların dostluq, sülh, əməkdaşlıq və hətta təslim olma haqqında müqavilələrə daxil edilməsindən cinayət işləri üzrə hüquqi yardım göstərilməsi haqqında xüsusi müqavilələrin bağlanılmasınadək inkişaf yolu keçmişdir [17, s.213-214; 23, s.195: 32, s.5].

Tarixin müəyyən dövrlərində hüquqi yardıma xariciyə münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsində təqsirləndirilən şəxsin dövlət nümayəndəsinin iştirakı, ağır cinayət törətmiş cinayətkarların qeyd-şərtsiz ekstradisiyası, sülhə müqavimət göstərənlərin amansız cəzalandırılması, ayrı-ayrı cinayətkarlara münasibətdə yurisdiksiyadan götürmələr və s. kimi institutlar daxil idi və cinayət işləri üzrə hüquqi yardım institutunun tənzimlənməsi və ya təkmilləşdirməsi üçün bu gün də istifadə oluna bilər.

**Birinci fəslin "Hüquqi yardım institutu və məhkəmə tapşırıqları" adlı ikinci paraqrafında** hüquqi yardım institutunun və məhkəmə tapşırıqlarının mahiyyəti və məzmunu araşdırılmış və anlayışları verilmişdir.

Dövlətlər arasında hüquqi yardım sorğu edən dövlətdə istintaq edilən və ya məhkəmə baxışında olan cinayət işi üzrə sorğu edilən dövlətin milli qanunvericiliyi əsasında onun ərazisində cinayətlərlə bağlı müvafiq prosessual və digər hərəkətlərə dair sorğu edən dövlətin müvafiq səlahiyyətli orqanlarının sorğularının yerinə yetirilməsindən ibarətdir. Hesab edirik ki, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım milli cinayət-prosessual hüququn institutudur və məhkəmə tapşırıqlarının yerinə yetirilməsi məsələləri onun çərçivəsində həll edilir. Qarşılıqlı hüquqi yardımı tənzimləyən beynəlxalq aktlar milli qanunvericiliyə tətbiq etməklə həyata keçirilir. Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım iki və ya daha çox dövlətin dövlət orqanları və vəzifəli şəxsləri arasında qarşılıqlı fəaliyyət forması deyildir. Qarşılıqlı fəaliyyət müqavilələrin yerinə yetirilməsinin və müvafiq olaraq beynəlxalq əməkdaşlıq forması ola

bilər. Beynəlxalq təşkilatlar və məhkəmə orqanları dövlətlərarası hüquqi yardım institutunun inkişafına təsir göstərir, lakin əsas münasibətlər dövlətlərarası sferada baş verir və onların iradəsi ilə formalaşır. Əks halda, bu qurum konkret sərhədləri olmayan bir anlayışa çevrilərdi.

Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımın beynəlxalq cinayət prosesinə aid edilməsinin də hüquqi yardım haqqında sorğuların icrası zamanı milli cinayət-prosessual normaların tətbiqi ilə bağlı heç bir əsası yoxdur. Hazırda hüquqi yardımın həyata keçirilməsi üçün məhkəmə tapşırıqları əsas kimi çıxış edir. Lakin hesab edirik ki, dövlətlərarası münasibətlərin indiki inkişaf səviyyəsində hüquqi yardımın həyata keçirilməsi üçün daha bir konkret əsas mümkün deyil, istənilən halda məktubla sorğu göndərilməlidir. Bu fikirlər hüquqi yardım institutunun müasir inkişaf səviyyəsi ilə bağlıdır. Ola bilsin ki, gələcəkdə məhkəmə tapşırıqlarının daha sadələşdirilmiş və səmərəli formaları meydana gələcək və ya icra üçün əsaslar genişləndiriləcək. Təbii ki, hüquqi yardım institutu ilə bağlı suverenlik və bəzi hallarda formal suverenlik mülahizələrinin aradan qaldırılması daha uzun təkamül prosesini tələb edə bilər.

Məhkəmə tapşırığı hüquqi yardım çərçivəsində sorğu edən xarici dövlətdə istintaq edilən və məhkəmə baxışında olan cinayət işi ilə bağlı milli qanunvericiliyin müddəalarına uyğun olaraq müvafiq prosessual və digər hərəkətlərin yerinə yetirilməsi ilə bağlı sorğu edilən dövlətin səlahiyyətli orqanına təqdim edilən xahişdir.

Məhkəmə tapşırığının anlayışının qanunvericiliyə daxil edilməsi təklif edilir: Azərbaycan Respublikası CPM-nin 7.0.14-cü maddəsi 7.0.15-ci maddə hesab edilsin və 7.0.14-cü maddə aşağıdakı redaksiyada verilsin: Məhkəmə tapşırığı - sorğu edən orqanda istintaq edilən və ya baxılan cinayət işi ilə əlaqədar sübutların toplanılması üçün digər şəhərin, rayonun və ya dövlətin cinayət təqibi orqanına göndərilən müvafiq cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş qaydada prosessual hərəkətlərin aparılması haqqında xahişdir [25, s.96].

Azərbaycan Respublikasının cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi ilə bağlı ikitərəfli müqavilələr və beynəlxalq

konvensiyalarla bağlı olduğu ölkələrin qanunvericiliyinin oxşarlığına, əsasən onun roman-german hüquq sisteminə aid olmasına görə, hüquqi yardım çərçivəsində məhkəmə tapşırıqlarının icrasında nəzərəçarpacaq çətinlik yoxdur. Problemlər ayrı-ayrı istintaq hərəkətlərinin aparılması üçün ümumi tələblərlə deyil, nəticələrin rəsmiləşdirilməsi, bir sıra texniki xüsusiyyətlərlə bağlıdır. Bununla belə, digər ölkələrlə, o cümlədən ümumi hüquq ölkələri ilə əlaqələrin inkişafı və genişləndirilməsi məhkəmə tapşırıqlarının icrasında prosessual problemlər yarada bilər ki, bu da ikitərəfli sazişlər bağlanarkən nəzərə alınmalı və dəqiqləşdirmə yolu ilə aradan qaldırılmalıdır.

**Birinci fəslinin üçüncü paraqrafı "Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın həcmi"** hüquqi yardım haqqında milli qanunvericiliyin və beynəlxalq müqavilələrin təhlilinə həsr edilmişdir.

Cinayət işləri üzrə hüquqi yardımın həcmi dövlətlərin cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulmuş prosessual hərəkətlərdən daha genişdir [11,s.151].

Hüquqi yardımın həcminə böyük əhəmiyyət verilməsi onun hüquqi yardımla bağlı sənədlərdə ilkin müəyyən olunması zamanı daha geniş əməkdaşlıq üçün imkanlar yaratması ilə bağlıdır. Bəzi hallarda dövlətlər daha az həcmlə qarşılıqlı hüquqi yardım münasibətlərinə başlamağa üstünlük verirlər ki, bunu doğru hesab etmək olmaz. Çünki hüquqi yardımın həcmi geniş olduqda bu dövlətləri həm daxili qanunvericiliklərini təkmilləşdirməyə, həm də qarşılıqlı yardım zamanı məhkəmə tapşırıqlarının yerinə yetirilməsinin səmərəliliyinin artırılmasına təşviq edir. Əlbəttə, insan hüquqlarının formalaşması prosesinin də tarixən formal elan olunmadan keçməsini nəzərə alsaq, hüquqi yardımın həcminin geniş müəyyən edilməsi, yəni müəyyən mənada bəzi prosessual hərəkətlərin formal olaraq həcmə daxil edilməsini dövlətlərin əməkdaşlıq marağının təzahürü hesab etmək olar. İkitərəfli və çoxtərəfli müqavilələrdə nəzərdə tutulan prosessual və digər hərəkətlərin icrası təcrübəsinə müraciət etsək, görərik ki, nəzərdə tutulan hərəkətlərin qarşılıqlı icrasına başlanılması müəyyən zaman tələb edir, hətta bəzən nəzərdə tutulsa belə, hələlik onlardan istifadə

olunmamışdır. Ancaq bu məsələdə əks aspekti də nəzərə almaq lazımdır, yəni formallığın uzun müddət davam etdirilməsi, formallığın aradan qaldırılması üçün qanunvercilik və digər tədbirlərin görülməməsi düzgün hesab edilməməlidir. Əslində hüquqi yardım haqqında müqavilələrdə hüquqi yardımın həcmi geniş nəzərdə tutulduqda müqaviləyə dövlətlər tərəfindən müəyyən qeyd-şərtlər edilməlidir, yəni müqavilələrin ayrı-ayrı müddəalarının qüvvəyə minməsi üçün konkret müddətlər və ya əlavə razılaşdırmalar nəzərdə tutula bilər. Buna görə də hüquqi yardımın həcminin geniş nəzərdə tutulması orada göstərilən prosessual və digər hərəkətlərin həyata keçirilməsi üzrə fəaliyyətlərin təkmilləşdirilməsinə, təcrübənin formalaşmasına xidmət edir.

Cinayət işləri üzrə sübut etmə və sübut etmənin həyata keçirilməsinin prosessual vasitələri ətraflı hüquqi tənzimləmə tələb edir. Prosessual və digər hərəkətlər prosessual sübut vasitəsi kimi bu tələbə tabedir, ona görə də ən azı ayrıca bir vasitənin hüquqi tənzimləmədən kənarda qalması istər-istəməz səhvlərə gətirib çıxarır və iş üzrə qərarın qanuniliyinə təsir göstərir. Ona görə də hesab edirik ki, iş üzrə sübut etməninin nəticələrinin tanınması ilə bağlı problemlərin aradan qaldırılması üçün cinayət-prosessual qanunvericiliyə prosessual hərəkətlərin növləri və anlayışları ilə bağlı əlavə edilməsi zəruridir [11, s.152] ki, bu da araşdırılan iş üzrə digər hərəkətlərin edilməsi barədə vəsatətlərin yerinə yetirilməsi hallarında qeyri-müəyyənlikləri aradan qaldıracaqdır.

Başqa bir dövlətin ərazisində istintaq hərəkətlərinin aparılması hüquqi yardımın həcminə daxil deyil. Başqa bir dövlətin ərazisində istintaq hərəkətlərinin aparılması tarixi bir institutdur, lakin o, bir qayda olaraq, digər dövlətin imtiyazı olaraq tətbiq olunurdu. Dil problemləri və qanunvericiliklərdə prinsipial fərqlər olmadıqda, prokurorun prosessual rəhbərliyi altında istintaq hərəkətlərinin həyata keçirilməsi hüquqi yardım haqqında çoxtərəfli və ikitərəfli müqavilələrə daxil edilməlidir. “Cinayət işlərinə dair hüquqi yardım haqqında” Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə hüquqi yardımın həcminə aşağıdakı məzmunda yeni hissə əlavə edilməsi təklif olunur: “2.4.6. prokurorun prosessual rəhbərliyi altında istintaq hərəkətlərinin aparılması”.

Dövlətlər arasında hüquqi yardımın həcmi hüquqi yardım göstərilməsinin intensivliyini və səmərəliliyini müəyyən edir, hüquqi yardım göstərilən işlər üzrə ədalət mühakiməsinin səmərəliliyi də ondan asılıdır. Hesab edirik ki, prosessual və digər hərəkətlərin qanunvericilikdə detallaşdırılması, bəzən hətta sadalanması təfsir, dəqiqləşdirmə ilə bağlı problemləri aradan qaldırır və xarici dövlətlərin məhkəmə tapşırıqları üzrə yerinə yetirilən prosessual hərəkətlərin nəticələrinin sübut əhəmiyyətini yüksəldir.

**Dissertasiyanın ikinci fəsili "Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım çərçivəsində ayrı-ayrı istintaq, məhkəmə və digər hərəkətlərin yerinə yetirilməsinin prosessual problemləri"** üç paraqrafdan ibarətdir.

**İkinci fəsilin birinci paraqrafı «Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində yerinə yetirilən istintaq hərəkətləri»** hüquqi yardım göstərilməsi çərçivəsində istintaq hərəkətlərinin yerinə yetirilməsinin qanunvericilik və təcrübi əsaslarının araşdırılmasına həsr edilmişdir.

Demək olar ki, bütün dövlətlərin cinayət-prosessual məcəllələrində istintaq hərəkətlərinin anlayışı, növləri ilə bağlı ümumi normanın olmaması təcrübədə iş üzrə nəticələrin sübut kimi tanınması ilə bağı çətinliklər yarada bilər. Bi isə cinayət işləri üzrə hüquqi yardım göstərilməsi zamanı daha aydın ifadə oluna bilər.

Azərbaycan qanunvericiliyi prosessual hərəkətləri istintaq və digər prosessual hərəkətlərə bölmədən müəyyən edir. İstintaq hərəkətləri cinayət işinin düzgün həll edilməsi üçün əhəmiyyəti olan halların müəyyən edilməsinə yönəldilmiş hərəkətlərdir və əgər onlar sübutlatın toplanmasına, işə aid olan faktiki halların müəyyən edilməsinə yönəlməsələr belə, özlərinin prosessual xarakterlərini itirmirlər.

Məhkəmə baxışı zamanı aparılan istintaq hərəkətləri iş üzrə ibtidai araşdırma zamanı aparılan istintaq hərəkətlərindən daha az əhatəlidir və aparılmasının qanunvericiliyin konkretləşdirməsindən kənarda qalmış özünəməxsus xüsusiyyətləri vardır.

İstintaq hərəkətləri cinayət işinin düzgün həlli üçün mühüm əhəmiyyət kəsb edən halların müəyyən edilməsinə yönəldilir və sübutların toplanmasına və iş üçün əhəmiyyət kəsb edən faktiki

halların müəyyən edilməsinə yönəlməsə də, prosessual mahiyyətini itirmir.

Məhkəmə iclasında həyata keçirilə bilən istintaq hərəkətlərinin dairəsi dindirmə, məhkəmə ekspertizasının aparılması, ərazilərə və tikililərə baxış, istintaq eksperimenti, şəxsiyyətin müəyyən edilməsi və şəxsi müayinə ilə məhdudlaşır. Bu istintaq hərəkətlərinin özünəməxsus xüsusiyyətləri vardır, yəni onların aparılmasında şahidlərin iştirakı nəzərdə tutulmur, onlar məhkəmənin təşəbbüsü ilə aparılır, aparılmasının formal əsaslarına görə fərqlənirlər, səmərəliliyi qəflətiliklə müəyyən edilən axtarış və digər istintaq hərəkətləri aparılmır.

İstintaq hərəkətlərinin dar mənasından çıxış edilməsi onların prosessual təminatlarının və həyata keçirilməsinin hüdudlarını müəyyən etməyə kömək edir.

Cinayət işləri üzrə hüquqi yardım göstərilməsinə prosessual hərəkətlər daxildir, istintaq hərəkətləri isə onların əsas, daha çox yerinə yetirilən hissəsidir və buna görə də hüquqi yardım göstərilməsi ilə bağlı beynəlxalq və ikitərəfli müqavilələrlə bağlı olan ölkələrin cinayət-prosessual qanunvericiliklərində istintaq hərəkətlərinin daha detallı tənzim edilməsi, sadalanması, prosessual hərəkətlərin tərkib hissələrinin müəyyən edilməsi tələb olunur.

Cinayət-prosessual qanunvericiliklərdə istintaq hərəkətlərinin anlayışı və növləri haqqında normaların olmaması səbəbindən dövlətlər arasında qarşılıqlı hüquqi yardım göstərilən iş üzrə sübutetmənin nəticələrinin tanınması ilə əlaqədar problemlərin aradan qaldırılması üçün CPM-nə aşağıdakı məzmunlu 7.0.49-cu maddənin edilməsini təklif edirik:

İstintaq hərəkəti – baxış; müayinə; istintaq eksperimenti; axtarış; götürmə; poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyma, yoxlama və götürmə; telefon və digər qurğularla aparılan danışıqların və başqa rabitə və texniki kanallar vasitəsi ilə ötürülən məlumatların və başqa məlumatların tutulması; dindirmə; üzləşdirmə; tanınmaya təqdim etmə; ifadələrin yerində yoxlanılması; məhkəmə ekspertizasının aparılması; eksqumasiya; əmlakın üzərinə həbs qoyulması; istintaq eksperimenti; tədqiqat üçün nümunələrin götürülməsi; elmi-texniki və məhkəmə-tibbi tədqiqatlar bir qayda

olaraq başlanmış cinayət işi üzrə və məhkəmə istintaqı mərhələsində prokuror, müstəntiq və məhkəmə tərəfindən iş üzrə sübutların aşkar edilməsi, toplanılması, yoxlanılması, qiymətləndirilməsi və istifadə edilməsi məqsədilə həyata keçirilən prosessual hərəkətdir [5, s.171].

**İkinci fəsilin ikinci paraqrafı "Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində yerinə yetirilən məhkəmə hərəkətləri",** məhkəmə hərəkətlərinin anlayışına, məzmununa, xüsusiyyətlərinin və dairəsinin müəyyən edilməsinə həsr edilmişdir.

"Məhkəmə hərəkətləri" anlayışı qanunvericilik qaydasında müəyyən edilmədən kənarda qalmışdır, ancaq prosessual hərəkətlərin sisteminə daxildir və məhkəmənin qərarı ilə rəsmiləşdirilirlər. Qanunvericilikdə müəyyən edilməmə məhkəmə hərəkətlərinin məhkəmə və məhkəmənin göstərişi ilə prosesin digər iştirtakçıları tərəfindən həyata keçirilən nəzarət, təşkilati və istintaq xarakterli istisnasız olaraq prosessual xarakterli olan hərəkətlər kimi müəyyən edilə bilməsi ilə bağlıdır. Bu vəziyyət "məhkəmə hərəkətləri" anlayışının ilk baxışda aydınlığı və söz birləşməsinin sadəliyi ilə də izah edilir.

Cinayət işləri üzrə hüquqi yardım göstərilməsi məqsədilə məhkəmə tərəfindən bütün istintaq və digər hərəkətlər həyata keçirilə bilər. Məhkəmə hərəkətlərinin yalnız onu həyata keçirən subyektdən asılı olaraq məhkəmə iclasının keçirilməsi ilə məhdudlaşdırılması düzgün hesab edilməməlidir. Çünki məhkəmənin iclasdan kənar prosessual fəaliyyəti də vardır, məsələn, yaşayış, xidməti və ya istehsalat binalarına baxış məhkəmə tərəfindən aparıla bilər.

Bütün prosessual və digər hərəkətlər sübut bazasının formalaşmasına xidmət edir, onun birbaşa və ya dolayı olmasının fərqi yoxdur. Prosessual hərəkətlərin konsepsiyasından, mahiyyətindən və rolundan çıxış edərək hesab edirik ki, prosessual hərəkətlər - istintaq, məhkəmə və digər prosessual hərəkətlərdir, cinayət-prosessual qanunvericiliyin fundamental müddəalarına aiddir və qanunvericilikdə öz əksini tapmalıdır.

Bütün bu məhkəmə hərəkətlərinin əsas fərqləndirici xüsusiyyəti, onların məhkəmənin səlahiyyətinə aid olması və iş üzrə cinayət təqibi çərçivəsində həyata keçirilməsi və prosessual

hərəkətlər olaraq məhkəmə qərarı ilə rəsmiləşdirilməsidir. Məhkəmənin həyata keçirdiyi bütün istintaq və digər hərəkətlər məhkəmə hərəkətlərinə aiddir. Qanunla nəzərdə tutulmuş bütün məhkəmə hərəkətləri cinayət işləri üzrə hüquqi yardım göstərilməsi qaydasında həyata keçirilə bilər. Bu hərəkətlərdən bəziləri bilavasitə məhkəmə tapşırıqlarının predmeti ola bilər, digərləri isə məhkəmə tapşırıqlarının yerinə yetirilməsi üçün tətbiq olunur. Qanunvericilikdə "məhkəmə hərəkətləri" anlayışının olmaması məhkəmə tapşırıqlarının icrası zamanı onların başa düşülməsində və həyata keçirilməsində, dolayısı ilə sübutların qiymətləndirilməsində çətinliklər yarada bilər [15,s. 112].

Bütün anlayışların başa düşülməsində və həyata keçirilməsində vahid yanaşmanın tətbiq edilməsinin təmin edilməsi və dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım haqqında qanunvericiliyin formallığının yüksəldilməsi üçün Azərbaycan Respublikası CPM-nə prosessual hərəkətlərin tərifi daxil edilməli və 7.0.37-ci maddə aşağıdakı redaksiyada verilməlidir: "prosessual hərəkətlər - cinayət prosesi iştirakçılarının bu Məcəllədə nəzərdə tutulmuş və onun müddəalarına uyğun olaraq həyata keçirdikləri istintaq, məhkəmə və digər prosessual hərəkətlər; məhkəmə hərəkətləri - məhkəmənin və məhkəmənin göstərişi ilə digər iştirakçıların prosessual hərəkətləridir" [8,s.28;15,s.112].

İkinci fəsilin üçüncü paraqrafında "**İstintaq, məhkəmə və digər hərəkətlərin yerinə yetirilməsi barədə məhkəmə sorğularının icra edilməsinin prosessual problemləri**" prosessual hərəkətlərlə bağlı məhkəmə sorğularının yerinə yetirilməsinin problemləri tədqiq edilir və məhkəmə sorğularının yerinə yetiriməsi təctübəsinin problemlərinin aradan qaldırılması və təkmilləşdirilməsi üçün təkliflər irəli sürülür.

Qanunvericiliyin konsolidasiyası, mümkün prosessual problemlərin aradan qaldırılması, o cümlədən cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım qaydasında məhkəmə tapşırıqlarının da daxil olduğu mühakimə icraatının səmərəliliyinin təmin edilməsi, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsinin və Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə ilə CPM-də şahid qismində çağırıla və

dindirilə bilməyən şəxslərin siyahısının yeni hissələrlə tamamlanması təklif edilir: Azərbaycan Respublikasının CPM-nin 95.2-ci maddəsinə aşağıdakı hissələr əlavə edilməlidir "95.2.6. din xadimi - etirafdan ona məlum olan hallar haqqında; 95.2.7. ailə həkimi və xəstəyə xidməti həyata keçirən digər şəxslər - xidmət etdikləri şəxslərin şəxsi həyatı ilə bağlı; 95.2.8. Azərbaycan Respublikası Milli Məclisinin deputatları - səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar onlara məlum olan hallar barədə; 95.2.9. İnsan Hüquqları üzrə Müvəkkil - şikayətdə əks olunan hallara baxılarkən ona məlum olan ərizəçilərin şəxsi və ailə həyatı haqqında; 95.2.10. Bu Məcəllənin 95.2.5-95.2.9-cu maddələrində nəzərdə tutulan şəxslər 1) insan həyatının qorunması; 2) ağır cinayətlərin qarşısının alınması; 3) ağır cinayət törətməkdə təqsirləndirilən və ya təqsirli bilinən şəxsin müdafiəsi məqsədilə, xüsusi olaraq əsaslandırılmaqla, dindirilə bilərlər" [2, s. 278; 7, s.145-146; 6, s.47; 12,s.12].

Bir çox dövlətlərin qanunvericiliyində bir dövlətin vəzifəli şəxsləri tərəfindən digər dövlətin ərazisində məhkəmə tapşırıqlarının icrası ilə bağlı heç bir müddəa yoxdur. Azərbaycan Respublikasının qanunvericiliyində yalnız Ədliyyə Nazirliyinin razılığı ilə xarici dövlətin hüquqi yardım göstərilməsinə dair sorğusunun icrasında müraciət edən müvafiq orqanın rəsmi nümayəndələrinin iştirakı nəzərdə tutulur. Digər dövlətin ərazisində prosessual hərəkətlərin aparılması üçün heç bir maneə yoxdursa, dövlətlər bu iştirakı təşviq etməlidirlər.

Cinayət işləri üzrə hüquqi yardım çərçivəsində üzləşdirmə hüquqi yardımın əhatə dairəsinə daxil deyil, lakin onun digər prosessual hərəkətlər kimi həyata keçirilə biləcəyi də istisna edilmir. Cinayət işləri üzrə hüquqi yardım çərçivəsində üzləşdirmənin aparılması perspektivli sahədir və əsasən sorğu edən dövlətin ərazisində cinayət törətmiş və cinayət işi qaldırılanadək ölkəni tərk etmiş və verilməli olmayan şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün cinayət işinin öz vətəndaşına münasibətdə cinayət təqibini həyata keçirməsi üçün bir dövlətdən digər dövlətə verildiyi hallarda istifadə oluna bilər. Lakin cinayət prosesinin iştirakçısının rifahına ciddi zərər vurmaq təhlükəsinin və xəstəlik, zəiflik hallarının başqa cür qarşısının alınması mümkün olmadıqda, üzləşdirmənin

tərəflərinin yaşayış yerləri arasında böyük məsafələr olduqda və s. hallarda, cinayət prosesinin müxtəlif dövlətlərin ərazisində olan iştirakçıları arasında da üzləşdirmə aparıla bilər. Cinayətlərin açılması, istintaqı prosesində, habelə ədalət mühakiməsinin həyata keçirilməsində operativ hüquqi yardım göstərilməsi baxımından da üzləşdirmə aktualdır.

Məsafədən dinləmə və videokonfrans apararkən distant dindirmə və üzləşdirmə nəticəsində əldə edilmiş sübutların qəbuledilməzliyi, bilavasitəliyi ilə bağlı bəzi etirazlar yaranır. Ona görə də hesab edirik ki, yalnız cinayət prosesində distant dindirməyə yolverilməsinin ümumi şərtləri, dindirilənin uzaqlaşdırılmış iştirakı ilə dindirmənin prosessual şərtləri, distant dindirmədə iştirak edən şəxslərin prosessual mövqeyi qanunvericiliklə müəyyən edildikdən sonra qanuni sayıla bilər.

Videokonfrans vasitəsilə dinləmə sübutların texniki vasitələrlə bilavasitə tədqiqi üsuludur və sübutların vasitəli araşdırılmasına imkan verən müstəsna hal, gələcəkdə isə bəlkə də adi kimi qiymətləndirilə bilər. Müstəsnalıq ondan ibarətdir ki, videokonfransdan sübutları birbaşa əldə etmək və tədqiq etmənin mümkün olmadığı hallarda və bu halların qeyd edilməsi üçün rəqəmsal texnologiyaların düzgün seçilməsi şərti ilə istifadə olunur.

Beynəlxalq aktlar və bəzi dövlətlərin milli qanunvericiliyi videokonfrans rejimində dinləmələrin tətbiqinə yalnız dindirmələrin qəbulu üçün və əsasən ifadələrin alınması üçün yol verir. Hesab edirik ki, şahid, zərərçəkmiş, şübhəli və təqsirləndirilən şəxslərin həm öz aralarında, həm də onların hər hansı kombinasiyasında videokonfrans vasitəsilə üzləşdirmə aparılması və tanınmaya təqdim etmə dövlətlər arasında hüquqi yardımın perspektivli sahəsidir və milli qanunvericilik səviyyəsində həll olumasını tələb edir [24, s.191-192].

Dövlətlər arasında hüquqi yardım çərçivəsində üzləşdirmənin və tanınmaya təqdim etmənin videokonfrans rejimində keçirilməsi üçün hüquqi yardım haqqında beynəlxalq və ikitərəfli müqavilələrlə bağlı olan ölkələrin milli qanunvericiliyinə, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, konkret dəyişikliklər edilməsi təklif olunur. Azərbaycan Respublikasının CPM hüquqi yardım

göstərilməsi məqsədi ilə Azərbaycan Respublikasının hüdudlarından kənarda olan şəxsin videokonfrans rejimində dindirilməsini tənzimləyir, lakin xarici dövlət tərəfindən göndərilən belə sorğunun yerinə yetirilməsini nəzərdə tutmur. Odur ki, CPM-nin 51-2.13-cü maddəsinə şəxsin Azərbaycan Respublikasının ərazisində videokonfrans sistemlərindən istifadə etməklə dindirilməsi haqqında xarici dövlətin məhkəmə tapşırığının analoji qaydada icra edildiyi barədə yeni hissənin əlavə edilməsi təklif edilir.

Dindirilən şəxslərin təhlükəsizlik tədbirlərinə onların anonimləşdirilməsi də aid edilməlidir [47,s.2005]. Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında Azərbaycan Respublikası Qanununa 15-1-ci maddə (Müdafiə olunan şəxslərin anonimləşdirilməsi) daxil edilməlidir.

Dövlətlər arasında hüquqi yardım göstərilməsi məqsədilə məhkəmə ekspertizasının aparılması bu fəaliyyəti tənzim edən bütün sənədlər üzrə hüquqi yardımın tərkib hissəsinə daxildir. Bütün məhkəmə ekspertizalarının həqiqi və təcrübədə yoxlanılmış biliklərə əsaslanmasına baxmayaraq, hüquqi yardım vasitəsilə həyata keçirilən ekspert rəylərinin qiymətləndirilməsində tətbiq edilən tədqiqat metodilkaları ilə bağlı problemlər yarana bilər. Buna görə də hüquqi yardım göstərilməsi qaydasında məhkəmə ekspertizası aparılarkən vahid metodologiyanın tətbiqi məsələsi aktualdır. Vahid metodologiyanın tətbiqi məsələsi dövlət və qeyri-dövlət məhkəmə ekspertiza müəssisələrinin olduğu dövlətlər üçün milli səviyyədə də aktualdır.

Məhkəmə ekspertizalarının aparılması üzrə hüquqi yardım məhkəmə ekspertizasının inteqrasiyasını və məhkəmə ekspertizalarının vahid metodologiya əsasında aparılmasını və ümumi beynəlxalq standartların tətbiq edilməsini tələb edir. Vahid metodologiya məhkəmə ekspertizasının inteqrasiyasında ilk addımdır. Vahid metodologiyanın tətbiqindən əvvəl ekspert metodologiyalarının yararlılığı yoxlanılmalıdır ki, bu da, öz növbəsində, validasiya ilə yoxlanılır. Məhkəmə-ekspert tədqiqatlarının standartlaşdırılmasından sonra bu standartlar əsasında məhkəmə ekspertizası müəssisələrinin akkreditasiyasına keçmək mümkündür. Ayrıca bir dövlətdə məhkəmə ekspertiza

müəssisələrinin akkreditasiyası üçün xüsusi standartların mövcudluğu bütün problemləri, o cümlədən ekspert rəylərinin qiymətləndirilməsi ilə bağlı problemləri həll etmək iqtidarında deyil. Buna görə də, hüquqi yardım aspektində də Azərbaycan Respublikasının da üzv olduğu ENFSI sənədlərinə uyğun olaraq ISO 17025 standartına uyğun olaraq akkreditasiya aparmalıdır.

**Üçüncü fəsil "Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım çərçivəsində prosessual hərəkətlərin yerinə yetirilməsinə nəzarət və kriminalistik təminatı problemləri"** iki paraqrafdan ibarətdir.

**Üçüncü fəslin birinci paraqrafı "Dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində prosessual və digər hərəkətlərin həyata keçirilməsinə prosessual rəhbərlik, prokuror nəzarəti və məhkəmə nəzarəti**" dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım çərçivəsində prosessual və digər hərəkətlərin aparılmasına prokuror və məhkəmə nəzarətinin təkmilləşdirilməsi məsələlərinə həsr edilmişdir.

Ayrı-ayrı dövlətlərin qanunvericiliyində "məhkəmə nəzarəti" terminindən istifadə olunur. Məhkəməyəqədərki icraat mərhələsində məhkəmə nəzarəti və məhkəmə kontrolu sinonim kimi istifadə olunur. Hesab edirik ki, kontrol idarəetmə səlahiyyətləri ilə bağlıdır və struktur bölmələrinin fəaliyyətinin normativ aktlara və digər sənədlərə uyğunluğunun yoxlanılmasından ibarətdir. İbtidai araşdırma və ibtidai araşdırmanın gedişinə prokuror nəzarəti cinayət işi məhkəməyə verilməzdən əvvəl həyata keçirilir, məhkəmə nəzarəti isə insan və vətəndaş hüquq və azadlıqlarını məhdudlaşdıran hərəkətlərin aparılması ilə bağlıdır və müvafiq olaraq əhatəsinə görə prokuror nəzarətindən məhduddur. Kontrol nəzarətdən fərqli olaraq, inzibati funksiyaların həyata keçirilməsi ilə bağlıdır.

Kontrol Azərbaycan dilinə nəzarət və yoxlama kimi tərcümə olunur. Kontrol və nəzarət anlayışlarının hüquqi təhlilinə əsasən hesab edirik ki, məhkəməyədək icraat zamanı məhkəmə nəzarəti yox, yoxlamanı (kontrolu) həyata keçirir. Belə ki, kontrol, nəzarətdən fərqli olaraq, inzibati funksiyaların həyata keçirilməsi ilə əlaqələndirilir. Azərbaycan Respublikasında məhkəməyədək icraatda məhkəmənin səlahiyyətlərinin məhkəmə nəzarəti adlandırılması, bir

tərəfdən, həm Azərbaycan dilində nəzarət sözünün istifadəsi ilə, həm də kontrol və nəzarət mənasını ifadə etməsi ilə bağlıdır. Digər tərəfdən, qanunun icrasına və tətbiqinə Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsi ilə nəzarətin prokurorun səlahiyyətlərinə aid edilməsi məhkəməyəqədər icraatda məhkəmə nəzarəti və məhkəmə kontrolu anlayışlarının müəyyən edilməsinin vacibliyi qarşısında qoyur. Azərbaycan Respublikası CPM-də məhkəmə nəzarəti üzrə məhkəmənin hərəkətlərinin mahiyyətinin yoxlayıcı və inzibati xarakterindən çıxış edərək, məhkəməyədək icraatda məhkəmə nəzarəti məhkəmə yoxlaması (kontrol-yoxlama) adlandırılmalıdır [18, s.80].

Movcud qanunvericilik qarşılıqlı hüquqi yardım göstərilməsi qaydasında xarici dövlətlərin sorğularının icrası çərçivəsində həyata keçirilən prosessual məcburiyyət tədbirlərinin həyata keçirilməsinə prosessual rəhbərliyin, prokuror nəzarətinin və məhkəmə nəzarətinin həyata keçirilməsini nəzərdə tutmur. Prosessual hərəkətlər haqqında sorğuların yerinə yetirilməsi və buna uyğun olaraq prosessual məcburiyyət tədbirlərinin aparılmasına prosessual rəhbərlik, prokuror nəzarəti və məhkəmə nəzarəti olmadan sadəcə olaraq mümkün deyil və bu hərəkətlərin iştirakçılarının hüquqlarının pozulmasını müzakirə etməyə belə dəyməz. Odur ki, cinayət işləri üzrə hüquqi yardım göstərilməsi məsələlərinin məcəlləşdirilməsi, beynəlxalq normaların implementasiyası və milli cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi üçün dövlətlər arasında hüquqi yardım göstərilməsi qaydasında prosessual hərəkətlərin həyata keçirilməsinə dair xarici dövlətlərin sorğularının yerinə yetirilməsinə prosessual rəhbərlik və nəzarət haqqında müvafiq dəyişikliklər edilməlidir.

Qanunvericiliyə göstərilən dəyişiklikləri etdikdən sonra prokuror hüquqi yardım göstərilməsi qaydasında prosessual hərəkətlərin aparılması haqqında xarici dövlətlərdən daxil olmuş sorğuların icrasına prosessual rəhbərliyi həyata keçirmək hüququna malikdir. Prosessual hərəkətlərə prokurorun prosessual rəhbərliyi prokuror nəzarətinin bir formasıdır. Prokuror nəzarəti məhkəmə nəzarətindən əvvəl gəlir və onu şərti olaraq məhkəməyədək icraatda birinci instansiya adlandırmaq olar. Hüquqi yardım göstərilməsi

prosesində xarici dövlətlərin məhkəmə sorğularının yerinə yetirilməsi üzrə prosessual hərəkətlərin aparılmasına prosessual rəhbərlik prosessual məcburiyyət tədbirinin həyata keçirilməsi hüququ verir və müvafiq olaraq, bu hərəkətlər həm prokuror nəzarəti, həm də məhkəmə nəzarəti ilə əhatə olunur.

Azərbaycan Respublikasının CPM prosessual rəhbərlik termininin məzmununu açıqlamır, ancaq təhlil əsasında qeyd etmək olar ki, prokurorun prosessual rəhbərliyi ibtidai istintaqın təşkilini, ibtidai araşdırmanın istiqamətlərinin müəyyən edilməsini, prosessual hərəkətlərin əlaqələndirilməsini, müstəntiqlərin fəaliyyəti üçün şəraitin yaradılmasını, qanunvericiliyin tələblərinə riayət edilməsinin təmin edilməsini əhatə edir və prokuror nəzarətinin həyata keçirilməsinin formasıdır.

Prosessual rəhbərlik və prokuror nəzarəti cinayət təqibi, əməliyyat-axtarış tədbirləri çərçivəsində həyata keçirilir. Prokuror əməliyyat-axtarış tədbirlərini və ibtidai araşdırmanı (ibtidai istintaqı və təhqiqatı) həyata keçirən orqanların prosessual fəaliyyətinə nəzarət edir. Göründüyü kimi, prosessual fəaliyyətə prokuror nəzarəti həyata keçirilir.

İbtidai araşdırmaya prosessual rəhbərlik və prokuror nəzarəti bir-birini təkrarlanmır, tamamlayır və qanun pozuntularının aşkar edilərək aradan qaldırılmasına xidmət edir. Nəzarət edən prokuror yalnız səhvləri göstərmir, həm də ibtidai istintaq mərhələsində bütün qanunsuz qərarları ləğv edir. Prokuror dövlətlər arasında hüquqi yardım göstərilməsi məqsədilə həyata keçirilən prosessual hərəkətlərə prosessual rəhbərliyi həyata keçirir və əlaqələndirir, müstəntiqlərin normal fəaliyyəti üçün şərait yaradır, qanunun tələblərinə əməl olunmasını təmin edir, yəni prosessual hərəkətlərin həyata keçirilməsinin qanuniliyinə və vaxtında aparılmasına və prosessual qərarların qəbuluna nəzarət edir.

Azərbaycan Respublikası CPM-nin 7.0.23-cü maddəsinə, “Prokurorluq haqqında” Azərbaycan Respubliklası Qanununun 4-cü maddəsinə hüquqi yardım çərçivəsində hərəkətlərə prosessual rəhbərliyin həyata keçirilməsi barədə əlavə edilməsi təklif edilir [18,s.81; 20, s.73].

**Üçüncü fəsilin ikinci paraqrafı "Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin kriminalistik təminatı problemləri"** sübutların etibarlılığı və inandırıcılığı baxımından dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın kriminalistik təminatı məsələlərinin araşdırılmasına həsr edilmişdir.

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım elmi-texniki üsul və vasitələrdən istifadə edilmədən ağlasığmazdır və sorğuların yerinə yetirilməsinin kriminalistik təminatına xüsusi yanaşmanı tələb edir. Cinayət işləri üzrə hüquqi yardım çərçivəsində prosessual və digər hərəkətlərin səmərəliliyinin artırılması üçün elmi-texniki vasitələrdən və biliklərdən istifadə problemlərin müəyyən edilməsi, hüquqi yardım çərçivəsində hərəkətlərin nəticələrinin tanınması üçün də zəruridir.

Cinayətlərin açılması və istintaqının texniki-kriminalistik, taktiki-kriminalistik və elmi-texniki təminatı terminlərindən istifadə olunur. Kriminalistik təminat vasitələrinin konkret xüsusiyyətlərindən və vəzifələrindən çıxış edərək, növbəti təsnifatı həyata keçirmək olar.

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım qaydasında sorğuların icrası zamanı kriminalistik təminat vasitələrinin tətbiq edilməsi müasir elm, texnika, incəsənət və digər sahələrdə ümumi qəbul edilmiş tədqiqat metodlarının standartlaşdırılması və qısa təsviri haqqında müvafiq normativ sənədləşmənin olmasının göstərilməsi ilə müşayət olunmalıdır. Belə normativ müəyyən etmə əldə edilmiş sübutların etibarlılığını təmin edəcək və qiymətləndirmədə potensial dalğalanmaları və riskləri aradan qaldıracaq. Məsələn, məhkəmə ekspertizasında kriminalistik təminat vasitələrinin tətbiq edilməsinin qanunvericilikdə möhkəmləndirilməsinə müraciət etmək olar.

Azərbaycan Respublikasının CPM-nin ekspertizanın rəyinə qarşı irəli sürülən tələbləri kriminalistik təminat vasitələrinin tətbiqi ilə bağlı olan digər prosessual hərəkətlərə qarşı irəli sürülmür. Qanunvericilik ekspertin rəyində yalnız tədqiqatın aparılması üsullarının və nəticələrin göstərilməsini müəyyən edir. Təcrübədə qanunvericiliyin bu tələbi yalnız üsulların adının və əldə olunan nəticələrin göstərilməsi ilə məhdudlaşır. Tətbiq olunan kriminalistik

təminat vasitələrinin etibarlılığı qeydiyyat və ya sertifikatlaşdırmadan asılıdır. Lakin cinayət işi üzrə sənədləşmədə kriminalistik təminat vasitələrinin tətbiq edilməsi hissəsində tətbiq olunan vasitənin sertifikatlaşdırma və ya qeydiyyatdan keçməsi barədə qeydlər tapmaq mümkün deyildir.

Məhkəmə ekspertizası orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik beynəlxalq əməkdaşlığı nəzərdə tutur, amma mahiyyəti açılmır. Bütün dövlətlərin qanunvericiliyində metod və metodikalara, elmi-texniki vasitələrə qanunda birbaşa nəzərdə tutulduğu kimi elmi əsaslılıq və ya mötəbərlik, təhlükəsizlik kimi ümumi tələblər qoyulursa, o zaman praktikada əməkdaşlığın elm sahəsi ilə məhdudlaşdırılması qarşılıqlı hüquqi yardımı da məhdudlaşdırmış olur.

Hüquqi yardım göstərilməsi çərçivəsində məhkəmə ekspertizalarının həyata keçirilməsi müəyyən istisnalar tətbiq olunmaqla zaman və qanunvericilik tənzimləməsi məsələsidir. Yeganə maneə, ekspertlərin vətəndaşlığıdır, ancaq başqa bir dövlətdə bir mütəxəssis olaraq tədqiqat prosesinə məhkəmə ekspertlərinin cəlb edilməsi qanunvericilik baxımından tam mümkündür, mütəxəssis cəlb edilməsi vətəndaşlıqla bağlı deyildir.

Azərbaycan cinayət-prosessual qanunvericiliyində “inandırıcılıq” və ya “qeyri-inandırıcılıq” anlayışları tətbiq edilmir. İnandırıcılıq sübutluluq, təkzibedilməzlik, ətraflı düşünmə, əyanilik, tutarlılıq, əsaslılıq, etibarlılıq, mübahisəsizlik kimi ifadələrin sinonimi kimi tətbiq olunur. Bu mənada Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 146.1-ci maddəsində sübutların kifayət etməsi dedikdə, müəyyən edilməli hallar üzrə mümkün sübutların elə bir həcmi nəzərdə tutulur ki, onlar sübut etmə predmetinin müəyyən edilməsi üçün mötəbər və yekun nəticəyə gəlməyə imkan versin. Bu tərif həm də sübutların inandırıcılığının tərifi sayıla bilər. Hüquqi yardım haqqında sorğuları icra edən orqanlar öz səlahiyyətləri daxilində idarə aktı qəbul edilməklə, müasir elm, texnika, incəsənət və digər sahələrdə ümumi qəbul edilmiş kriminalistik təminat vasitələrinin və tədqiqat metodlarının təsvirinin məcburi göstərilməsini öz üzərlərinə götürə bilərlər [19, s.225].

Bir elm sahəsinin konseptual anlayış aparatının, metodlarının və digər dərketmə vasitələrinin digər elm sahəsində səmərəli istifadə edilməsi inkişafın daha bir istiqamətidir. Məhkəmə ekspertizasında fəlsəfənin inteqrativ rolunun gücləndirilməsi biliklərin inteqrasiyasının son mərhələsidir. İnteqrasiya formaları şərtidirlər, bir-birinə qarışırlar, çulğalaşırlar, bir-birini tamamlayırlar, hətta müxtəlif ekspertiza növlərinin hissələrinin birləşməsi belə mümkündür. Elmi biliklərin sintezi özü-özlüyündə ekspertiza sahəsində inteqrasiyanın mühüm aspektidir. Elmi biliklərin sintezindən məhkəmə ekspertizasında istifadə edilməsi məhkəmə ekspert tədqiqatları nəzəriyyə və təcrübəsinin təkmilləşdirilməsində özünü göstərir, istintaq və məhkəmə təcrübəsinin ehtiyacları ilə şərtləşir, elmi biliyin yeni daha yüksək inkişaf səviyyəsinə müvafiq olan və elmin inkişafının müəyyən mərhələsində inteqrasiya prosesinə pillə kimi xidmət edən yeni metodların və texniki vasitələrin əmələ gəlməsinə gətirir, differensiasiya proseslərinin sürətləndirilməsinə və ümumi məqsədlərə xidmət edir. Məhkəmə ekspertizası və kriminalistika sahəsində qeyd olunan proseslər qarşılıqlı hüquqi yardım sahəsində də məhkəmə ekspertizasının imkanlarının genişləndirilməsinə xidmət edir və fəlsəfi kateqoriyaların geniş istifadə olunmasını, kriminalistik terminlərin və anlayışıarın unifikasiyası proseslərinin əlaqələndirilməsini və sürətləndirilməsini tələb edir.

**Dördüncü fəsil** “**Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin müasir problemləri**” üç paraqrafdan ibarətdir.

**Dördüncü fəsilin birinci paraqrafı** “**Müqavilələrlə bağlı olan dövlətlər arasında qarşılıqlı hüquqi yardım göstərilməsi problemləri”** hüquqi yardım göstərilməsi təcrübəsinin təkmilləşdirilməsi aspektində müqavilə əsasında hüquqi yardım göstərilməsi məsələlərinə həsr edilmişdir.

Qanunvericiliyin konkret cinayət təqibi orqanları, daha doğrusu, təhqiqat, istintaq, prokurorluq və ya məhkəmələr vasitəsilə məhkəmə tapşırıqlarının icrası istiqamətində getməsi ilə bağlı mövqe dəstəklənir. Cinayət işləri üzrə hüquqi yardımın dövlətin təhqiqat, istintaq və ədalət mühakiməsini həyata keçirən konkret cinayət təqibi

orqanları tərəfindən həyata keçirilməsi xarici dövlətlərin məhkəmə tapşırıqlarının icrası prosedurlarını sadələşdirəcək və səmərəliliyini artıracaq [14, s.192; 29, s.157; 30, s.57-58]. Eyni zamanda, hesab edirik ki, mərkəzi orqan tərəfindən nəzarət xarici dövlətlərin məhkəmə tapşırıqlarını yerinə yetirən milli orqanlarının məsuliyyətinin artırılmasının və vaxtında icra edilməmə və qeyri-dəqiq icra hallarının aradan qaldırmasının zəruri şərti olaraq qalır.

Xarici elementləri olan cinayət işləri üzrə hüquqi yardımın səmərəliliyi bəzən məhkəmə tapşırıqlarının vaxtında və keyfiyyətli yerinə yetirilməsindən asılıdır. Azərbaycan Respublikasının CPM-də və digər qanunvericilik aktlarında "ağlabatan müddət" anlayışının olmamasına baxmayaraq, təcrübədə mühakimə icraatının tezləşdirilməsinin təmin edilməsi ilə bağlı müəyyən müddəalar var.

Ancaq təcrübədə sorğunun qəbul edilməsi və cavab alınmasına qədər vaxt keçir. Mühakimə icraatının prosessual müddəti ilə bağlı bəzi problemlər də xarici dövlətlərin məhkəmə tapşırıqlarının icra müddətinə təsir göstərir. Bunu aparılmış anketləşdirmənin nəticələri də sübut edir. Respondentlərin fikrincə, məhkəmə tapşırıqlarının yerinə yetirilməsi müddətləri hədsiz uzundur, əlavə sənədləşmə tələb edilir və yardım mərkəzi orqanlar vasitəsilə göstərilir. Respondentlərin 95% hesab edir ki, məhkəmə tapşırıqlarının yerinə yetirilməsi müddətlərinin uzun olması cinayət işləri üzrə ədalət mühakiməsinin səmərəliliyinə təsir edir.

Azərbaycan Respublikasının CPM "ağlabatan müddət" terminindən istifadə etmir, ancaq CPM-in 48-ci maddəsi cinayət təqibi üzrə icraatın tezliyinin təmin edilməsinə həsr olunmuşdur və prosessual müddətlərin uzadılmasını nəzərdə tutur. Milli cinayət-prosessual qanunvericilik prosessual müddətlərin uzadılması zamanı mahiyyətini açıqlamadan cinayət işinin "mürəkkəbliyi" və "xüsusi mürəkkəbliyi" anlayışlarından istifadə edir. Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsi işin mürəkkəbliyinin müəyyən edilməsi üçün meyarlar hazırlasa da, milli təcrübə bu meyarların qapalı siyahısının verilməsinin mümkün olmamasından çıxış edir.

İşə baxılmasının "ağlabatan müddətinin" qiymətləndirilməsi meyarlarından biri də məhkəmənin və işdə iştirak edən şəxslərin, yəni məhz hakimiyyət orqanının, ərizəçinin özünün davranışıdır.

Söhbət həm də cinayət işinin başlanılması, ibtidai istintaqın aparılması, cinayət işinə apellyasiya qaydasında baxılması (məhkəmə şəxs barəsində tamamilə yeni qərar çıxara, o cümlədən cinayət məsuliyyətindən tamamilə azad edə bilər) mərhələləri daxil olmaqla cinayət təqibinin həyata keçirilməsinin ağlabatan müddətindən gedir.

Cinayət təqibi üzrə icraatın tezliyinin təmin edilməsi cinayət mühakimə icraatının prinsiplərinə və ya şərtlərinə aid deyildir və bu prinsiplərin pozulmasının CPM-nin 9.2-ci maddəsində müəyyən edilmiş nəticələri ona şamil edilmir. Cinayət prosesinin iştirakçılarının qanuni hüquqlarından məhrum edilməsi və ya məhdudlaşdırılması ilə əldə edilmiş sübutların yolverilməzliyi ilə bağlı CPM-in başqa tələbi də var.

Cinayət işləri üzrə dövlətlər arasında hüquqi yardım qaydasında məhkəmə tapşırıqlarının yerinə yetirilməsinin əsasən sorğu edilən dövlətin daxili qanunvericiliyi ilə tənzimlənən müddətlərinin tezləşdirilməsi üçün məhkəmə tapşırıqlarının qısa müddətlərdə icrası məsələsinin qanunvericiliklə həlli tələb olunur. Avropa Şurasına üzv dövlətlər arasında hüquqi yardım cinayət mühakimə icraatında ağlabatanlıq meyarının cinayət işləri üzrə məhkəmə tapşırıqlarına da tətbiq edilməsini tələb edir. Hüquq sistemlərinin və dövlətlərin hüquq sistemlərinin inteqrasiyası şəraitində dövlətlər arasında hüquqi yardım göstərilməsində ümumi konsepsiyaların tətbiqi, qarşılıqlı anlaşmanın sadələşdirilməsi üçün Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququndan və məhkəməyəqədərki və məhkəmə araşdırması mərhələlərində tezliyin təmin olunmasının pozulması zamanı cinayət prosesi iştirakçılarının müraciət etmə hüququndan çıxış edərək CPM-nin 48-ci maddəsinin "Cinayət mühakimə icraatının ağlabatan müddəti" adlandırılması, zərərçəkmiş şəxsin hüquqlarının içərisində prosesin tezləşdirilməsi ilə bağlı vəsatət vermə hüququnun nəzərdə tutulması məqsədəuyğun olardı [16,s.191; 30, s.57-58].

Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardımın daha da təkmilləşdirilməsi üçün dövlətlər arasında hüquqi yardım haqqında ikitərəfli müqavilələrdə məhkəmə tapşırıqlarının yerinə yetirilməsinin konkret müddətləri, xarici dövlət orqanlarının nümayəndələrinin iştirakı və ya dil baryeri və qanunvericilikdə

əhəmiyyətli fərqlər olmadıqda xarici dövlət orqanları tərəfindən dövlətin ərazisində istənilən istintaq hərəkətlərinin aparılması ilə bağlı xüsusi müddəaların nəzərdə tutulması zəruridir.

Milli qanunvericilikdə təqsirləndirilən şəxsin, zərərçəkmişin və cinayət prosesinin digər iştirakçılarının cinayət təqibinin tezliyini təmin etmək üçün ibtidai istintaqa prosessual rəhbərliyi həyata keçirən prokurora və məhkəmənin sədrinə və digər instansiyalara müraciət etmək hüququ birbaşa nəzərdə tutulmamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi çərçivəsində ərizəçinin şikayətinə baxılması prosedurunu tezləşdirmək imkanı milli qanunvericilikdə də nəzərdə tutulmalıdır. Azərbaycan Respublikası CPM-nin 87.6.23-cü maddəsinin 87.6.24 hesab edilməsi və aşağıdakı məzminda yeni 87.6.23-cü maddənin əlavə edilməsi və zərərçəkmişin: "87.6.23. İş üzrə prosesin tezləşdirilməsini xahiş etmək;" hüququnun nəzərdə tutulması təklif olunur.

Kəsişən və paralel yurisdiksiyaların tənzim edilməsi problemi dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin aktual problemlərindəndir. Avropa Birliyi çərçivəsində tətbiq olunan Avropa həbs orderinin digər regionların və ya digər qitələrin dövlətləri arasında hüquqi yardım göstərilməsi təcrübəsinə tətbiq edilməsi müəyyən şərtlər olmadan mümkün deyildir. Dövlətlər arasında oxşar bir orderin tətbiqi ilə bağlı nəzəri yanaşmada belə, ədalət mühakiməsinin həyata keçirilməsinin razılaşdırılması problem olaraq qalır. Avropa həbs orderinə adekvat olan bir sənəd müəyyən edilənədək, ilk zamanlar, əgər dövlətlər cinayət işləri üzrə hüquqi yardım haqqında beynəlxalq müqavilələrlə bağlıdırlarsa, kəsişən yurisdiksiyalar məsələsinin həlli zamanı nəzarət orqanı funksiyasının cinayət işləri üzrə hüquqi yardım haqqında çoxtərəfli müqavilələrin orqanlarının üzərinə qoyulması vəziyyətdən çıxış yolu olardı və bu sahədə əməkdaşlıq presedenti yaradardı [45, s.10].

**Dördüncü fəslin ikinci paraqrafında "Dövlətlər arasında hüquqi yardım göstərilməsi zamanı elektron sübutlardan və plandankənar informasiyadan istifadə edilməsinin perspektivləri"** dövlətlər arasında hüquqi yardım göstərilməsində sübutetmə üçün əhəmiyyəti olan elektron sübutların və plandankənar

məlumatların əldə edilməsi  və tətbiq edilməsi məsələləri nəzərdən keçirilir.

Milli qanunvericilikdə elektron sübut anlayışı yoxdur. Azərbaycan qanunvericiliyi yalnız sənədi sənədləşdirilmiş məlumat kimi tanıyır və məlumatın qeydə alınması, saxlanması və ötürülməsinin texniki üsullarından çıxış edərək sənədlərin yazılı formasını mütləqləşdirməkdən imtina edir. Qeyd etmək olar ki, elektron informasiya dedikdə, elektron vasitələrlə ötürülməyə, işlənməyə və bu kimi hallara imkan verən formada təqdim olunan informasiya başa düşülür. Elektron sənədlərə, plastik ödəmə sənədləri (plastik kartlar), elektron üsullarla pul vəsaitlərinin göndərilməsi və alınması yolu ilə elektron ödəmədən istifadə etməklə bağlı sənədlər və s. aiddir.

“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununda sənədləşdirilmiş məlumat (sənəd) anlayışının ifadəsi daha həcmli və uğurludur, onun cinayət prosesinin məqsədləri üçün qeyd edilməsi və Azərbaycan Respublikası CPM-nin 135-ci maddəsinə “135.4. Sənədləşdirilmiş informasiya (sənəd) - maddi daşıyıcıda mətn, səs və ya təsvir formasında qeydə alınan və identikləşdirməyə imkan verən istənilən rekvizitli informasiya mənbəyindən, saxlanma yerindən, rəsmi statusundan, mülkiyyət növündən, mənsub olduğu təşkilat tərəfindən yaradılıb-yaradılmadığından asılı olmayaraq sənədləşdirilmiş informasiyadır” məzmununda yeni hissəsinin əlavə edilməsi məqsədəmüvafiq olardı [44, s.63-64].

Elektron sübutlar bəzən başqa dövlətin yurisdiksiyasında olurlar və onların alınması qanunla müəyyən edilmiş qaydada bu yurisdiksiyaya müraciət edilməsini tələb edir ki, bu da elektron məlumatların itirilməsi, saxtalaşdırılması və ya silinməsi riski ilə bağlı əlavə problemlər yaradır. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım göstərilməsi institutunun tətbiqi başqa dövlətə edilən sorğuların müvafiq qeydiyyata alınmasını və sorğu edilən dövlətdən bu sorğunun icrası və cavabının alınması üçün müəyyən vaxt tələb edir. Cinayət işləri üzrə yardım göstərilməsi ilə bağlı dövlətlər arasında çoxtərəfli və ikitərəfli müqavilələrə uyğun olaraq, hər bir dövlət xarici yurisdiksiyalardan sorğuların göndərilməsi və icrası

üçün məsul olan öz səlahiyyətli orqanını təyin edir ki, bu da bu rəsmiləşdirmələrin yerinə yetirilməsi üçün müvafiq vaxt tələb edir.

Elektron sənədlərin dəyişdirilməsi və ya itirilməsi (silinməsi) riskinin qismən aradan qaldırılmasının digər səmərəli üsulu ayrı-ayrı cinayətlərin təhqiqatında beynəlxalq əməkdaşlıqda uğurla istifadə olunan "palndankənar məlumat" və ya könüllülük əsasında verilən məlumat institutudur. Bu instituta uyğun olaraq, ərazisində və yurisdiksiyasında sübutların yerləşdiyi dövlətin səlahiyyətli orqanları bu dövlətin daxilində hüquq pozuntusunun törədilməsinin halları və elementləri haqqında məlumat və ya materiallar göndərirlər. Bu cür məlumatların vaxtında və operativ alınması istintaqın səmərəliliyinin və operativliyinin yüksəldilməsinə kömək edə bilər.

Xarici yurisdiksiyadan plandankənar məlumat əldə edilməsi birbaşa cinayət işinin başlanması səbəblərinə aid edilmir, ancaq onu hüquqi yardım göstərilməsi ilə bağlı beynəlxalq müqavilələrə və ikitərəfli müqavilələrə uyğun olaraq hüquqi şəxsin məlumatlarına aid etmək olar.

Aşkar edilmiş məlumatın plandankənar göndərilməsi məlumatı aşkar edən tərəfin iradəsindən asılıdır və artıq qeyd edildiyi kimi, məlumatların verilməsi üçün məhkəmə sorğularının göndərilməsi vaxt çərçivəsi ilə bağlıdır. Belə hallarda inzibati yardımdan və ya polis orqanlarının yardımından istifadə edilməsi müəyyən məhdudiyyətlərin tətbiqinə imkan verəcək. Beynəlxalq əməkdaşlığın ənənəvi formaları uzun, çətin prosedurları nəzərdə tutur və onların uğuru çox vaxt proses tərəflərinin xoş niyyətindən və səlahiyyətindən asılıdır. Qlobal internetin miqyası getdikcə daha əhatəli olur və beynəlxalq əməkdaşlığın ənənəvi formalarından, o cümlədən qarşılıqlı hüquqi yardımın formal çərçivə və strukturlarından kənara çıxmanı tələb edir. Əməkdaşlığın ən səmərəli formalarından biri bütün cinayət əməlləri və digər pozuntular haqqında plandankənar məlumatların göndərilməsidir. Bunun üçün plandankənar informasiyanın göndərilməsinin təkmilləşdirilməsi, cinayətkarlıqla mübarizə və hüquqi yardım göstərilməsi ilə bağlı beynəlxalq aktlara müəyyən normaların daxil edilməsi və dövlətlərin müvafiq inzibati orqanları arasında məlumat mübadiləsinə dair ikitərəfli sazişlərin, informasiya mübadiləsinin məcburi şəkildə

həyata keçirilməsi, aşkar edilmiş faktlar haqqında plandankənar məlumatların göndərilməsi haqqında hesabatların məcburi mübadiləsi və hüquqi yardım göstərilməsi üzrə inzibati tədbirlərin dairəsinin genişləndirilməsi tələb olunur [28, s.67].

**Dördüncü fəsilin üçüncü paraqrafı** “**Dövlətlər arasında cinayət işləri üzrə müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi problemləri**” hüquqi yardım göstərilməsi təcrübəsinin təkmilləşdirilməsi aspektində qeyri-müqavilə əsasında hüquqi yardım göstərilməsi problemlərinin müəyyən edilməsinə və aradan qaldırılması məsələlərinə həsr edilmişdir.

Müqavilələrin olmadığı hallarda, bəzən xarici məhkəmələrin tapşırıqlarının icrası siyasi iradədən, yəni dövlətlər arasında dostluq münasibətlərindən, məhkəmə sisteminin demokratikliyinin səviyyəsindən, siyasi aspektdə sorğuların yerinə yetirilməsinin məqsədəuyğunluğundan və s. asılıdır. Hüquqi yardım haqqında müqavilələr olmadıqda hüquqi yardım göstərilməsi zamanı cəzanın ikiqat tanınması prinsipinin çevikliyindən çıxış edilməlidir [38,s.292].

Hüquqi yardım göstərilməsi haqqında müqavilə olmadıqda diplomatik vasitələrlə hüquqi yardım göstərilməsi tapşırıqların icrası müddətləri ilə bağlı problemlər yaradır və çoxlu sayda dövlət orqanlarını əhatə edir.

Cinayətkarlığın müasir transmilli xarakteri bir neçə dövlətin ərazisində ayrı-ayrı cinayət əməllərinin törədilməsi, cinayətlərdə iştirak edənlərin vətəndaşlığının və mülki mənsubiyyətinin müxtəlifliyi, sübutlarının müxtəlif dövlətlərin ərazisində olması ilə bağlıdır. Belə şəraitdə bu cinayətlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi müvafiq dövlətlərin ən geniş əməkdaşlığını tələb edir.

Dövlətlər arasında çoxtərəfli və ikitərəfli əməkdaşlıq müqavilələrinin olmaması digər əməkdaşlıq formalarından istifadəni də istisna etmir. Dövlətlər arasında hüquqi yardım dövlətlər arasında əməkdaşlıq sahələrindən biridir və çoxtərəfli və ikitərəfli müqavilələr olmadığı halda qarşılıqlılıq prinsipinə uyğun olaraq həyata keçirilir [36,s.288].

Müqaviləsiz əsasda hüquqi yardım göstərilməsi məqsədəmüvafiqliklə bağlıdır, məqsədəmüvafiqlik cinayət işinin istintaqının verilməsi, prosesual hərəkətlərin yerinə yetirilməsi haqqında sorğuların icrası ilə bağlı ola bilər. Məqsədəmüvafiqliyi cinayət təqibinin ağlabatanlığı baxımından da tətbiq etmək olar, lakin hesab edirik ki, üst-üstə düşən elementlərə baxmayaraq, məqsədəuyğunluq, məsələn, dövlətin ədalət mühakiməsini həyata keçirərkən suveren hüququ ilə bağlı siyasi mülahizələri və ya rəsmi mövqeləri rəhbər tutması, heç də həmişə ağlabatanlığı bildirmir.

Dövlətlər arasındakı münasibətlərdə dövlətlərin suveren bərabərliyi prinsipinə əsaslanan qarşılıqlılıq prinsipi beynəlxalq hüququn imperativ normasıdır (juscogens). Müqavilə olmadıqda dövlətlər arasında hüquqi yardım göstərilməsi hallarına qarşılıqlıq prinsipi tətbiq edildikdə, dövlətlər eyni sorğuların sorğu edən dövlət tərəfindən icrası şərti ilə onun hüquqi yardım haqqında müraciətinə əməl etməlidirlər.

Müqaviləsiz əsasında hüquqi yardım göstərilməsi müəyyən problemlər yaradır ki, onlardan bəziləri müqavilə əsasında hüquqi yardım göstərilməsinə də xasdır.

Qarşılıqlı hüquqi yardım haqqında müqavilə olmadıqda xarici dövlətin ədliyyə orqanından birbaşa alınmış tapşırığın icrası əməkdaşlıq üçün presedentlər yaradır və qarşılıqlı hüquqi yardımın daha da inkişaf etdirilməsinə kömək edir.

Digər dövlətin ərazisindən oğurlama, qaçırma şəklində cinayətkarların yerinin qanunsuz məcburi dəyişdirilməsi dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım institutu və ümumi mənada hüquqi institut deyildir. O, qarşılıqlı hüquqi yardım gözlənilən nəticələri vermədikdə, hədsiz mürəkkəb prosedurlarla bağlı olduqda, uzun müddət tələb edirsə, dövlət ərazisində olan cinayətkarın siyasi və digər səbəblərə görə verilməsini istəmədiyi və ya vermək iqtidarında olmadıqda və ya oğurlamanı asanlaşdırmaq üçün dövlətin ekstradisiyadan imtina ilə pərdələndiyi hallarda tətbiq olunur. Bu institututa müraciət edilməsinə cinayət işləri üzrə ədalət mühakiməsinin səmərəli həyata keçirilməsinin ayrı-ayrı prosessual hərəkətlərin vaxtında yerinə yetirilməsindən asılı olmasına istinad edilməsi ilə bəraət qazadırılması qəbul edilə bilməz. Cinayətkarların

oğurlanmasının məqsədi də həbsdə saxlama, dindirmə və cəzalandırmadır, əlbəttə bu prosedurların hamısı oğurlamanın özü kimi qeyri-qanuni xarakter daşıyır. Bir sıra hallarda dövlətlər qeyri-hüquqi vermənin həyata keçirilməsindən sonra ümumiyyətlə susmanı üstün tuturlar. Bu isə dövlətlərin insan hüquqları üzrə öhdəliklərinin pozulması və formal olsa da, suverenliklərinin pozulmasına göz yummasıdır. Son illərin təcrübəsində fövqəladə verməyə kəşfiyyat məlumatlarının əldə edilməsi və qeyri-rəsmi cəzalandırma üçün müraciət edilmişdir və insanların yoxaçıxması hallarının artmasına gətirmişdir. Dövlətin qeyri-hüquqi fəaliyyətdə iştirak etməkdən çəkinməsi dövlətlərin bu fəaliyyətə aidiyyətinin olmasından asılı olmayaraq, qanuni vasitələrdən istifadə edərək onun aradan qaldırılması üzrə fəaliyyətini də əhatə edir. Bəzi hallarda, dövlətlərin ümumi sərhədləri olmadıqda, öz ərazisindən və ya hava məkanından istifadə edilməsinə icazə verən üçüncü dövlətlər, məlumatları olduqda, bu qanunsuz fəaliyyətdə iştirak etməyə, susmaqla razılıq verməyə və səhlənkarlığa görə məsuliyyət daşıyırlar. Dövlət digər dövlətdən şəxsi gizli həbsdə saxlamanı xahiş edir, dindirmə üçün sualları göndərirsə, dövlət ərazisindən keçən nəqliyyat yollarının aşkar edilməsi üçün tədbirlər görmürsə və digər hallarda qanunsuz əməliyyatların iştirakçısına çevrilir. Bəzi hallarda terrorizmlə mübarizə üzrə əməkdaşlıq məsələlərini də  qeyri-hüquqi vermə halları ilə müqayisə edirlər. Ancaq burada fərq belə əməkdaşlıq tədbirlərinin ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinə imkan verməsindən ibarətdir. Əlbəttə, dövlətlərin bu əməkdaşlıqdan qeyri-hüquqi fəaliyyət məqsədilə istifadə edilməsi hallarına haqq qazandırıla bilməz.  Dövllətlərin milli təhlükəsizliyə hədə olması hallarında lazımi nəticələrə nail olunması üçün istənilən prosedurlara müraciət etməsi də sonillərin təcrübəsi sırasındadır. Qeyd olunan “təcrübələrin” aradan qaldırılması üçün cinayətkarların yerinin qanunsuz məcburi dəyişdirilməsinin yolverilməzliyi haqqında müddəalar qarşılıqlı hüquqi yardım haqqında, həmçinin əməkdaşlıq və dostluq haqqında ikitərəfli müqavilələrə daxil edilməlidir [37,s.153].

**Nəticə hissədə** tədqiqatın nəticələri, müəllifin dövlətlər arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım göstərilməsi

problemlərinə yeni yanaşmaların tətbiqinin zəruriliyi ilə bağlı elmi və nəzəri cəhətdən əsaslandırılmış mövqeyini əks etdirən müddəalar ümumiləşdirilir, cinayət işləri üzrə hüquqi yardım göstərilməsinin perspektivdə təkmilləşdirilməsinə dair doktrinal ideyalar, cinayət-prosessual qanunvericiliyin müasirləşdirilməsi üçün tövsiyələr, habelə bəzi beynəlxalq sənədlərin ratifikasiyasına, müqavilələr olmadığı halda prosedur hərəkətləri barədə dövlətlərin birtərəfli qaydada məlumatlandırılması, çoxtərəfli səviyyədə qəbul edilmiş daha ümumi müddəaların təşviq edilməsinə dair təkliflər formalaşdırılır və həmçinin mövzunun gələcək inkişaf perspektivləri qeyd edilir.

Dövlətlər arasında qarşılıqlı hüquqi yardımın cinayət prosessual əsaslarının təkmilləşdirilməsi üçün Azərbaycan Respublikasının CPM-nə, “Cinayət işlərinə dair hüquqi yardım haqqında” və “Prokurorluq haqqında” qanunlarına və digər aktlara məhkəmə tapşırığının, prosessual hərəkətlərin, istintaq hərəkətinin, prokurorun anlayışı, qarşılıqlı hüquqi yardım qaydasında yerinə yetirilən istintaq və digər prosessual hərəkətlər üzərində prokurorun prosessual rəhbərliyi və prokuror nəzarəti, cinayət işinin başlanması üçün səbəb kimi hüquqi yardım çərçivəsində xarici dövlətin səlahiyyətli orqanının (vəzifəli şəxsinin) müraciəti, cinayət mühakimə icraatının ağlabatan müddəti, xarici dövlətin Azərbaycanın ərazisində olan şəxsin videokonfrans sistemlərinin köməyi ilə dindirilməsi barədə, üzləşdirmə və tanınmaya təqdim etmə istintaq hərəkətlərinin videokonfrans sistemlərinin köməyi ilə həyata keçirilməsi barədə, zərərçəkmiş şəxsin iş üzrə prosesin tezləşdirilməsini xahiş etmək hüququ barədə, şahid qismində çağırıla və dindirilə bilməyən şəxslərin dairəsinin genişləndirilməsi, sənədləşdirilmiş informasiya (sənəd) anlayışı, cinayət işlərinə dair hüquqi yardımın beynəlxalq müqavilələr olmadıqda qarşılıqlıq əsasında tənzimlənməsi, məhkəmə nəzarətinin məhkəmə yoxlaması adlandırılması ilə bağlı əlavə və dəyişikliklərin edilməsi, kompüter məlumatlarının təxirəsalınmadan saxlanması ilə bağlı yeni maddənin daxil edilməsi təklif olunur.

Müəllif xarici məhkəmə orqanından birbaşa alınmış tapşırığın icrasını, məhkəmə tapşırıqlarını icra edən istintaq və məhkəmə

orqanlarının dairəsinin genişləndirilməsini, elektron sübutların anlayışının daxil edilməsini, dil problemləri olmadıqda, prokurorun prosessual rəhbərliyi altında başqa bir dövlətin ərazisində istintaq hərəkətlərinin həyata keçirilməsinin hüquqi yardım haqqında çoxtərəfli və ikitərəfli müqavilələrə daxil edilməsini, Qurani-Kərimin və Peyğəmbərin hüquqi yardım, təhvil vermə və digər məsələlərlə bağlı müddəalarının və fikirlərinin müasir təcrübədə geniş istifadə olunmasını və s. əsaslandırır.

**Əlavələrdə** hakimlərin, prokurorların, ibtidai istintaq orqanlarının əməkdaşlarının və vəkillərin sorğusunun nəticələri, dövlət səviyyəsində hüquqi yardım göstərilməsini əks etdirən sxemlər, dövlətlər arasında hüquqi yardım göstərilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı konkret təkliflər öz əksini tapmışdır.

*Dissertasiyanın əsas məzmunu aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:*


1. Dövlətlər arasında hüquqi yardım çərçivəsində cinayət təqibi problemləri //- Bakı: Hüquqi dövlət və qanun jurnalı, – 2010. №3, – s.27-29.
2. Некоторые уголовно-процессуальные вопросы судебных поручений //- Bakı: Dirçəliş XXI əsr jurnalı, – 2010. №145-146, – s.266-280.
3. Вопросы уголовного преследования в отношении своих граждан в рамках правовой помощи // Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş “Hüquq elminin müasir problemləri” II Beynəlxalq Konfransın materialları, –Bakı: – 29 aprel – 1 may, – 2010, – s.536-539.
4. I Fəsil. Kriminalistika elminin yaranma tarixi. XX Fəsil. İfadələrin yerində yoxlanması taktikası.XXXYI Fəsil. Ekoloji cinayətlərin araşdırılma metodikası/ Kriminalistika.Dərslik. B.Ə.Əliyevin məsul redaktorluğu ilə. – Bakı: Qanun, – 2010. – s. 12-31;342-354; 654-669.
5. Следственные действия, выполняемые в рамках взаимной правовой помощи по уголовным делам// Научные труды IY Международной научно-практической конференции «Теоретико-правовые проблемы укрепления Российской государственности», Дагестанский Государственный Университет, «Московский Открытий Университет» Институт «Филиал» в г. Махачкала, –Махачкала:– 12–13 ноября, – 2010, – с.167-171.
6. Получение свидетельских показаний и объяснений в рамках оказания правовой помощи по уголовным делам между государствами//– Москва: Право: теория и практика, – 2010. №10-12. – с.43-48.

7. Некоторые уголовно-процессуальные вопросы правовой помощи между Азербайджанской Республикой и Республикой Казахстан //– Астана: Вестник Евразийского национального университета имени Л.Н.Гумилева, – 2010. №4(6), – с. 127-149.
8. Процессуальные и иные действия в рамках правовой помощи по уголовным делам между государствами // «Qloballaşma şəraitində humanitar elmlərin aktual problemləri» Respublika elmi-praktik konfransının materialları, – Bakı: – 15 mart, – 2011. – c.26-28.
9. Некоторые вопросы правовой помощи в борьбе с терроризмом //Bakı Dövlət Universiteti Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş «Dövlət və hüquq quruculuğunun aktual problemləri» XI Respublika elmi-praktik konfransının materialları, –Bakı: – 11-12 may, – 2011. – s.281-284.
10. Некоторые вопросы правовой помощи в рамках Международного уголовного суда //Материалы международной конференции «Современные проблемы правовой науки и образования и пути их разрешения», посвященной дню рождения выдающегося политического деятеля современности Гейдара Алиева и 20-летию возобновления государственности Азербайджанской Республики, – Баку: –14 мая, –2011.Iчасть, – с. 278-282.
11. Объем правовой помощи по уголовным делам между государствами //–Баку: Научные и педагогические известия Университета Одлар Юрду, Серия гуманитарных наук, – 2011. №32, – с.147-153.
12. Некоторые уголовно-правовые и процессуальные вопросы правовой помощи между государствами в борьбе с коррупционными преступлениями (на примере сотрудничества Азербайджанской Республики и Республики Молдова)// – Кишинев: Studia universitatis, Universitatea de stat din Moldovaç seria Ştiinte sociale, –2012. № 3(53), –c.8-14.
13. Некоторые вопросы правовой помощи между государствами и Международным уголовным судом // Материалы международной научно-практической конференции «Правовой мониторинг в республике Казахстан: теория, проблемы, перспективы», – Астана: – 29 ноября, – 2012, – с.257-261.
14. Роль органов внутренних дел при оказании правовой помощи между государствами// Материалы I международной научно-практической конференции «Актуальные проблемы криминологического исследования региональной преступности», Академия Полиции, – Баку: – 18 декабря, –2013, – с.188-192.
15. Судебные действия, выполняемые в рамках взаимной правовой помощи по уголовным делам между государствами // Материалы II международной научно-практической конференции «Актуальные проблемы криминологического исследования региональной

преступности». Академия Полиции, –Баку: –21 октября, –2014, – с.108-113.
16. Некоторые вопросы сроков исполнения судебных поручений по уголовным делам в порядке правовой помощи между государствами //– Москва: Евразийский юридический журнал, –2014. №7(74), – с.188-192.
17. Из истории института взаимной правовой помощи между государствами по уголовным делам// Bakı: Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, – 2014. №4(48), – с.207-216.
18. Судебный надзор за выполнением судебных запросов о проведении процессуальных действий в порядке оказания правовой помощи по уголовным делам между государствами// – Бишкек: «Право и политика», Научно-методический журнал, – 2014. №3, – с.77-81.
19. Вопросы криминалистического обеспечения оказания правовой помощи между государствами по уголовным делам//– Самара: Вестник Самарского Государственного Университета, Гуманитарная серия, –2014. №11/2 (122), –с.220-228.
20. Некоторые вопросы применения мер процессуального принуждения в порядке оказания взаимной правовой по уголовным делам между государствами //–Баку: Актуальные вопросы судебной экспертизы, криминалистики и криминологии, Сборник научных трудов, – 2014. №62, – с.69-75.
21. Выполнение судебных экспертиз в порядке оказания правовой помощи между государствами//–Москва: Журнал «Право и политика», – 2015. № 1, – с.69-74.
22. Böyük Britaniyanın Konstitusion aktları və hüquq normaları (İngiltərə). Dərs vəsaiti. –Bakı: Adiloğlu nəşriyyatı, –2015, – 501 s.
23. История института правовой помощи Азербайджанской Республики между государствами по уголовным делам в средние века // Материалы III Международной научно-практической конференции «Актуальные проблемы криминологического исследования региональной преступности», Академия Полиции, – Баку: –16 октября, – 2015, – с. 188-196.
24. Перспективы проведения очной ставки в режиме видеоконференцсвязи в рамках оказания правовой помощи по уголовным делам между государствами // –Баку: Nəqliyyat hüququ, Elmi-nəzəri, təcrübi jurnal, – 2015. № 2, –с.180-194.
25. Некоторые вопросы судебных поручений по уголовным делам в рамках оказания правовой помощи между государствами// Душанбе: Вестник Конституционного суда Республики Таджикистан, – 2015. №2, – с. 94-103.
26. Оказание правовой помощи по уголовным делам между государствами на бездоговорной основе//–Баку: Актуальные вопросы

судебной экспертизы, криминалистики и криминологии, Сборник научных трудов, – 2016. №64, – с.235-245.
27. Перспективы использования электронных доказательств при оказании правовой помощи между государствами//– Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, Elmi hüquq jurnalı, –2016. №1-2 (15), – s.167-176.
28. Возможности использования спонтанной информации в рамках оказания взаимной правовой помощи по уголовным делам между государствами//- Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, Elmi hüquq jurnalı, –2019. № 4 (24), – s.63-69.
29. Современные проблемы оказания взаимной правовой помощи по уголовным делам между государствами// Материалы международной научно-практической онлайн конференции «Подготовка кадров для органов внутренних дел в современных условиях в высших учебных заведениях специального назначения: состояние и перспективы», Академия Полиции, –Баку: – 26 мая, – 2021, – с.153-158.
30. Some of issues of time-limits of the of letters rogatory enforcement on criminal cases for mutual legal assistance between the states// International Conference «Process Management and Scientific Developments». Melbourne, Australia, – July 7, – 2021, – p.50-60.
31. Получение свидетельских показаний и объяснений в рамках оказания правовой помощи по уголовным делам между государствами // – Bakı: Antiterror elmi-informasiya bülleteni, –2021. №1. –с.116-126.
32. Исторические аспекты развития института правовой помощи между государствами по уголовным делам в Азербайджанской Республике: [Электронный ресурс] //-Москва: Юридические исследования, – 2021. № 7. – с. 48 - 60. URL: https://nbpublish.com/library_read_article.php?id=36043
33. Criminal procedural and forensic issues in the context of legal regulation of legal assistance in criminal matters: [Electronic resource] / M.P. Asgarova, B.A. Aliyev, N.M. Ahmetzade//–Paulínia, SP, Brazil: Laplage Em Revista, –2021. Vol. 7, No. 3C: Sept./Dec., – p.512-522. URL: https://laplageemrevista.editorialaar.com/index.php/lpg1/article/view/1655/1405
34. Xarici ölkələrdə kriminalistikanın inkişaf tarixi// Kriminalistika: Dərslik/K.Q.Sarıcalinskaya və İ.S. Abbasovanın redaktəsi ilə. -Yenidən işlənmiş, əlavə və dəyişikliklər edilmiş 2-ci nəşri. –Bakı: –Hüquq Yayım evi, –2021. –s.117-123.
35. Evolution of the institution of legal assistance between States in criminal matters in the Republic of Azerbaijan [Electronic resource] /–Turkish Online Journal of Qualitative Inquiry (TOJQI), – 2021. Vol.12, No.10 (2021), – p.1867-1880. URL: https://www.tojqi.net/index.php/journal/article/view/7760

36. The principle of reciprocity in the provision of legal assistance in criminal matters between countries: [Electronic resource] //–Lviv: Наукові записки Львівського університету бізнесу та права. Серія економічна. Серія юридична. Випуск 29/2021,-p. 285-290.URL: https://nzlubp.org.ua/index.php/journal/article/view/461
37. Cinayətkarların yerinin məcburi dəyişdirilməsi problemləri// Book of Abstracts. İnternational conference: XXI century, new challenges and modern development tendencies of law, –December 21-22, – 2021. Baku State University. Baku, Azerbaijan, – 2021, – p.152-153.
38. Problems of the non-treaty based mutual legal assistance on criminal cases between the states: [Electronic resource] // -Kiev: «Часопис Київського університету права»,Український науково-теоретичний часопис,Київський університет права НАН України,Інститут держави і права імені В.М. Корецького НАН України, -2021/3.-p.289-295. URL: https://chasprava.com.ua/index.php/journal/issue/view/84/%E2%84%963-2021
39. Из истории оказания правовой помощи между государствами по уголовным делам в Азербайджанской Республике //Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası "Azərbaycan Respublikasının suverenliyinin, müstəqilliyinin v əərazi bütövlüyünün konstitutsiya əsasları" Respublika elmi-praktik konfransının materialları, –Bakı:– 5 noyabr, –2021, –c.159-175.
40. Azerbaycan Cumhuriyeti ile Türkiye Cumhuriyeti arasında karşılıklı adli yardımın tarihsel gelişimi // Türk Hukuk Tarixi Sempoziumu Bildiriler Kitabı, Cumhurbaşkanlığı Millet Kütüphanesi, Türkiye Adalet Akademisi, –Ankara, Türkiye: – 25-27 Ekim, – 2021, – s.83-102.
41. Criminal Procedure and Forensic Aspects of Mutual Legal Assistance between States in Criminal Matters: Experience of Ukraine and the Republic of Azerbaijan: [Electronic resource] /– Venezuela: Revista Cuestiones Políticas, –2022. Volumen 40, Número 72, -p. 591-607. URL: https://produccioncientificaluz.org/index.php/cuestiones/article/view/37786/41576
42. The use of electronic evidence in court: a comparative legal analysis in the world practice: [Electronic resource]/ M.P. Asgarova, B.A. Aliyev, F.Y. Khalilov, I.Z. Hasanova //– Venezuela: Revista Cuestiones Política, –2022. Volumen 41, Número 73, –p.385-394. URL: https://produccioncientificaluz.org/index.php/cuestiones/article/view/37768/41540
43. Problems of international cooperation in the field of criminal prosecution: some problems of reform: [Electronic resource] /– Florencia (Caqueta, Colombia): Revista Amazonia Investiga, –2022.Volume 11, №52, – 186-194. URL:

https://amazoniainvestiga.info/index.php/amazonia/article/view/1981/2620
44. Dövlətlər arasında hüquqi yardım göstərilməsi çərçivəsində elektron sübutlardan istifadə edilməsinin perspektivləri//-Bakı: Qanun. Elmi hüquq jurnalı, –2022. № 06 (332), – s.56-66.
45. Dövlətlər arasında cinayət işləri üzrə hüquqi yardım çərçivəsində üst-üstə düşən və ya paralel yurisdiksiya problemləri//– Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, Elmi hüquq jurnalı, –2022. №3 (35), – s. 5-12.
46. Matters relating to Mutual Legal Assistance between States in the Holy Quran and the Treaty Practices of the Prophet [Electronic resource] /– Turkish Online Journal of Qualitative Inquiry (TOJQI), – 2022. Vol.13, No.1 (2022), – p.2230-2243. URL: https://www.tojqi.net/index.php/journal/article/view/9773
47. Problems using of the anonymous witness//– Slovak Republic: Traektoriâ Nauki (Path of Science: International Electronic Scientific Journal). –2022. Volumen 8, №12, –p.2001-2006. URL: https://pathofscience.org/index.php/ps/article/view/1866/1099

Dissertasiyanın müdafiəsi 18 may 2023-cü il tarixində saat 11.00-da Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən ED 245 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Milli Aviasiya Akademiyası, AZ1045, Bakı, Binə qəsəbəsi, Mərdəkan pr., 30

Dissertasiya ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 17 aprel 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.04.2023

Kağızın formatı:A5

Həcm: 95 896

Tiraj: 100